11 fevral 2022 №12 (1885) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Vətən müharibəsi iştirakçılarının təltif edilməsi haqqında sərəncam imzalanıb

Prezident İlham Əliyev fevralın 10-da "Vətən müharibəsi iştirakçılarının təltif edilməsi haqqında" sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövrdə Vətən müharibəsində iştirak etmiş, aparılan döyüş əməliyyatlarının uğurla nəticələnməsinə töhfə vermiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və mülki işçiləri, habelə ön cəbhədə fədakarlıq göstərmiş mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin və dövlətə məxsus digər hüquqi şəxslərin əməkdaşları və mülki işçiləri "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif ediləcəklər.

Göstərilən şəxsləri "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının Baş nazirinə verilib.

Nazirlər Kabinetinə "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə "Müharibə veteranı" adının verilməsi ilə bağlı tədbirlər haqqında" ölkə başçısının 2021-ci il 29 dekabr tarixli sərəncamı ilə "Müharibə veteranı" adı verilmiş şəxslərin siyahısı, habelə əməkdaşları və mülki işçiləri ön cəbhədə fədakarlıq göstərmiş mərkəzi, habelə yerli icra hakimiyyəti orqanları və digər qurumların təqdim etdiyi məlumatlar nəzərə alınmaqla Vətən müharibəsi iştirakçılarının siyahısını müəyyən etmək tapşırılıb.

## UNESCO missiyası Ermənistan ərazisində xalqımıza məxsus olmuş irsi tədqiq etməlidir

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi UNESCO-nun Ermənistana və Azərbaycana missiya göndərməsi ilə bağlı əldə edilmiş razılığı alqışlayır. Bu barədə Mədəniyyət Nazirliyinin yaydığı məlumatda bildirilir.

"Ümid edirik ki, UNESCO-nun regiona nəzərdə tutulan missiyası Ermənistan ərazisində Azərbaycan xalqına mənsub olan irsin ətraflı şəkildə tədqiq edilməsi, müvafiq qaydada monitorinqi və sənədləşdirilməsi baxımından da əhəmiyyətli olacaqdır", – deyə məlumatda vurğulanır.

səh. 2

## Ölkəmiz Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda fəxri qonaq olacaq

Azərbaycan IX Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda "fəxri qonaq ölkə" statusunda iştirak edəcək.

Forumun rəhbəri Yeqor Moskvin bu barədə Rusiya Federasiyasının mədəniyyət naziri Olqa Lyubimova ilə görüşündə bildirib. Azərbaycandan başqa Almaniya və Fransa da budəfəki Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunun qonaq ölkələri olacaq.

səh. 2

## "Şuşa İli"nə həsr olunmuş pyes müsabiqəsi

Mədəniyyət Nazirliyi "Şuşa İli"nə həsr olunmuş pyes müsabiqəsi elan edir.

Müsabiqəyə indiyə qədər heç bir teatrda səhnələşdirilməyən pyeslər qəbul olunur. Müsabiqəyə qatılmaq üçün yaş məhdudiyyəti yoxdur. Əsərlər sentyabrın 1-nə qədər qəbul edilir.

səh. 3

# 44 günlük savaş və Şuşa zəfəri haqqında Azərbaycan-Türkiyə bədii filmi çəkiləcək

### Türkiyəli heyət ümumilikdə 8 layihə ilə gəlib, müştərək serialın çəkilməsi də planda var



Fevralın 10-da Nizami Kino Mərkəzində Türkiyənin ölkəmizdə səfərdə olan kinematoqrafçılar heyətinin mətbuat konfransı keçirildi. Mətbuat konfransında "Eslem Film" şirkətinin rəhbəri Metin Yücel, "Asmalı Konak", "Kurtlar Vadisi Pusu" kimi seriların rejissoru Selahattin Sancaklı, "Kurtlar Vadisi Pusu" filmində Yasin obrazını canlandıran Ertuğrul Şakar, prodüser Yalçın Çoban iştirak edirdi.

Metin Yücel media nümayəndələrinin diqqətinə çatdırdı ki, yaxın zamanda Azərbaycan kinematoqrafçıları ilə birlikdə 2020-ci ilin 44 günlük Vətən müharibəsi və Şuşadan bəhs edən filmin çəkilişlərinin başlanması nəzərdə tutulub. Müştərək filmin heyətinin yarısını Azərbaycan, yarısını da Türkiyə kino sənətçiləri təşkil edəcəklər.

Filmdə əsas məqsəd Azərbaycanı və ölkəmizin tarixi zəfərə başa çatan Vətən müharibəsini dünyaya tanımaq, eyni zamanda otuz il doğma torpaq həsrətində olan azərbaycanlıların yurd, vətən nisgilini göstərməkdir. Filmin çəkilişləri Qarabağla yanaşı müxtəlif bölgələrimizdə də aparılacaq.

Rejissor Selahattin Sancaklı film layihəsinin əsas hekayəsinin Şuşa üzərində qurulacağını dedi: "Qarabağ savaşının hər mərhələsi nə qədər çətin olsa da, Şuşanın alınması və Şuşa döyüşləri bu müharibənin ən çətin mərhələsi olub". Onun sözlərinə görə, layihənin davamı kimi serial çəkilişi də nəzərdə tutulub.

Aktyor Ertuğrul Şakar filmin bütün Türk dünyası üçün əhəmiyyətli olacağını vurğuladı. Onun sözlərinə görə, Şuşa və Qarabağ savaşının filmlə dünyaya təqdimatına ehtiyac var.

davamı səh. 3-də

## "Nizamidən Nəvaiyə qədər: dövrləri bağlayan tellər"




Azərbaycanın Rusiyadakı Səfirliyinin, Heydər Əliyev Fondunun RF-dəki nümayəndəliyinin və Özbəkistanın Rusiyadakı Səfirliyinin dəstəyi ilə fevralın 9-da Moskvada "Nizamidən Nəvaiyə qədər: dövrləri bağlayan tellər" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib. Onlayn formatda beynəlxalq konfrans M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Asiya və Afrika Ölkələri İnstitutunun təşkilatçılığı ilə reallaşıb.

Konfransda çıxış edən Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu iki böyük mütəfəkkir şairə həsr olunmuş tədbirin əhəmiyyətindən söz açıb. "Tarixdə elə görkəmli şəxsiyyətlər var ki, əsrlər keçməsinə baxmayaraq, onlar öz yaradıcılığı ilə xalqları, mədəniyyətləri və ölkələri birləşdirirlər" deyən səfir qeyd edib ki, belə şəxsiyyətlər bəşəriyyətdə qarşılıqlı anlaşma mühitinin yaranmasına, müxtəlif mədəniyyətlərin daha da zənginləşməsinə və gələcəyə böyük ümidlə baxmağa imkan yaradırlar.

Dahi Azərbaycan şairi Nizami Gəncəvi haqqında danışan diplomat Prezident İlham Əliyevin sərəncamına əsasən 2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi İli" elan edildiyini diqqətə çatdırıb, şairin 880 illiyinin həm Azərbaycanda, həm də dünyanın müxtəlif ölkələrində geniş qeyd olunduğunu bildirib.

Polad Bülbüloğlu Nizaminin qədim Azərbaycan şəhəri olan Gəncədə yaşayıb-yaratdığını vurğulayaraq, onun zəngin yaradıcılığı haqqında tədbir iştirakçılarına məlumat verib. Vurğulayıb ki, Nizami irsi mənəvi dəyərlərin qorunub saxlanılmasına xidmət edir.

davamı səh. 3-də

## Sənətçilərimiz Kazanda beynəlxalq opera festivalında

### Dirijor pultu arxasında Əyyub Quliyev, səhnədə Əvəz Abdullayev



30 yanvar – 22 fevral tarixlərində Kazan şəhərindəki M.Cəlil adına Tatarıstan Dövlət Akademik Opera və Balet Teatrında böyük rus müğənnisi Fyodor Şalyapinə həsr olunmuş 40-cı beynəlxalq opera festivalı keçirilir.

Festivalda ölkəmizi Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, Əməkdar artist, beynəlxalq müsabiqələr laureatı Əyyub Quliyev və Almaniyanın Manhaym (Mannheim) şəhərinin Opera Teatrının solisti, Azərbaycanın Xalq artisti Əvəz Abdullayev (bariton) təmsil edirlər.

Builki festivalın proqramına 11 müxtəlif opera əsəri daxil edilib. C.Puççininin "Toska" operasının premyerası (rejissor Yuri Aleksandrov, rəssam Vyaçeslav Okunev) ilə açılan festivalın sonrakı günlərində P.Çaykovskinin "Qaratoxmaq qadın", C.Verdinin "Traviata" və "Aida" operaları təqdim edilib. Proqramda həmçinin M.Musorqskinin "Boris Qodunov", C.Rossininin "Sevilya bərbəri", R.Leonkavallonun "Payatsı" operalarının nümayişi nəzərdə tutulub. R.Axiyarovun "Syumbike" operasına isə milli səhnə əsəri olaraq festival repertuarında xüsusi yer ayrılıb.

davamı səh. 2-də



## "Xarıbülbülün rəngləri" – musiqi və rəsmlərdə

Fevralın 9-da Beynəlxalq Muğam Mərkəzində "Xarıbülbülün rəngləri" adlı tədbir keçirildi. Tədbir "Kaspi" uşaq musiqi və incəsənət məktəbi ("Kaspi" liseyləri nəzdində məktəb) və "Müasir Azərbaycan Psixoloqları" İctimai Birliyi nəzdində "Xarıbülbül fidanları" könüllülər təşkilatının təşəbbüsü ilə reallaşdı.

səh. 3

## Pol Nadarın Bakıdan İstanbul və Daşkənd yolu



Fevralın 10-da Azərbaycan Milli İncəsənət Muzeyində Fransanın Memarlıq və İrs Multimedia Kitabxanasının fotoqrafiya şöbəsinin rəhbəri, "Nadar kolleksiyası" üzrə ekspert Matild Falqiyer tərəfindən təqdim olunan "Pol Nadar, Qafqazdan keçməklə İstanbul-Daşkənd" mövzusunda konfrans keçirildi.

Hibrid formatda konfrans Mədəniyyət Nazirliyi, Fransanın Azərbaycandakı Səfirliyi, Azərbaycan Fransız İnstitutu (İFA) və Milli İncəsənət Muzeyinin birgə əməkdaşlığı ilə 17 dekabr 2021-ci ildə muzeydə açılan "Pol Nadar. Bakıya əsrarəngiz səyahət" adlı sərgi çərçivəsində təşkil edilmişdi.

Giriş sözü söyləyən İFA-nın direktoru Jerom Kel konfrans haqqında məlumat verdi, iki ay əvvəl açılan "Pol Nadar. Bakıya əsrarəngiz səyahət" sərgisinə Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyini xüsusi qeyd etdi. Bildirdi ki, konfransda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri də iştirak edir.

davamı səh. 2-də

## Ələsgər sözü musiqi qanadlarında

Ötən il 200 illiyi dövlət səviyyəsində qeyd edilən Aşıq Ələsgər Azərbaycan aşıq sənətinin inkişafında məxsusi yeri olan ustadlar ustadıdır. Onun yaradıcılığı xalq ruhlu ədəbiyyatımızın ən gözəl nümunələrindən hesab olunur. Təsadüfi deyil ki, bir sıra şeirləri bəstəkarlarımızın da diqqətini cəlb edib, unudulmaz nəğmələrə, aşıqların repertuarında əbədi yer tutan saz havalarına çevrilib.

səh. 5

## Akademik Musiqili Teatr "Fəcr" festivalında



səh. 5

## Azərbaycan Yaradıcı Sənayelər Federasiyası üzvlük üçün qəbul elan edib

səh. 4

## Tahir Salahovla "Dialoq" kitabının təqdimatı



səh. 5

№12 (1885)
11 fevral 2022
www.medeniyyet.az

## UNESCO missiyası Ermənistan ərazisində xalqımıza məxsus olmuş irsi də tədqiq etməlidir

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi UNESCO-nun Ermənistana və Azərbaycana missiya göndərməsi ilə bağlı əldə edilmiş razılığı alqışlayır.

Bu barədə Mədəniyyət Nazirliyinin yaydığı məlumatda bildirilir.

Məlumatda qeyd edilir ki, indiki Ermənistan ərazisində əsrlər boyu yaşamış azərbaycanlılara məxsus zəngin tarixi-mədəni, dini irs nümunələri mövcud olub. Hələ 1869-cu ildə Çar Rusiyası Qafqaz Canişinliyinin (Tiflis şəhərində yerləşirdi) nəşr etdirdiyi "1870-ci il üçün Qafqaz təqvimi" adlı sənəddə verilən statistik məlumatlara görə, o vaxt təkcə İrəvan quberniyasında 269 məscid olub. Bu siyahıya həmçinin İrəvanda Xan sarayı, İrəvan qalasının divarları, ümumilikdə hazırkı Ermənistan ərazisində mövcud olmuş çoxsaylı hamam, karvansara, türbə, qəbiristanlıq və s. əlavə etmək olar.

Qeyd edək ki, ötən illərdə Ermənistan rəhbər dairələri tərəfindən həyata keçirilən məqsədli siyasət nəticəsində bu ölkə ərazisində Azərbaycan xalqına məxsus bütün tarixi-mədəni irs, abidələr, tikililər məhv edilib.

"Ümid edirik ki, UNESCO-nun regiona nəzərdə tutulan missiyası Ermənistan ərazisində Azərbaycan xalqına mənsub olan irsin ətraflı şəkildə tədqiq edilməsi, müvafiq qaydada monitorinqi və sənədləşdirilməsi baxımından da əhəmiyyətli olacaqdır", – deyə məlumatda vurğulanır.

## Azərbaycanla məsləhətləşərək addım atırıq

### Türkiyə-Ermənistan normallaşma prosesi

Ermənistan ilə Türkiyə arasında normallaşma prosesində Azərbaycanın hər hansı bir narahatçılığı yoxdur. Tam əksinə, Azərbaycan bu prosesi dəstəkləyir.




Bu fikirləri fevralın 9-da "TRT Haber" telekanalında canlı yayımda çıxış edən Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

Sözügedən prosesdə Azərbaycan ilə məsləhətləşmə aparmadan addım atılmadığını diqqətə çatdıran Mövlud Çavuşoğlu qeyd edib ki, Azərbaycan bizim Ermənistanla birbaşa təmasda olmağımızı istəyir: "Azərbaycanın Qarabağ Zəfəri ilə Cənubi Qafqazda işğal problemi həllini tapdı. Artıq sülh və əməkdaşlığın təmin edilməsi lazımdır".

Ermənistan daxil olmaqla bütün tərəflər üçün Qarabağ Zəfərindən dərs almağın vacib olduğunu ifadə edən nazir Mövlud Çavuşoğlu məlumat verib ki, Paşinyanın seçkiləri qazanandan sonra ünvanladığı mesajlara Türkiyə Prezidenti də cavab verib. Türkiyə və Ermənistanın xüsusi nümayəndələri fevralın 24-də Vyanada görüşəcəklər.

Nazir əlavə edib ki, Azərbaycan da Ermənistanla davamlı sülh istəyir.

Aparıcının Şuşa Bəyannaməsindən (15 iyun 2021-ci il) sonra iki qardaş ölkə münasibətlərinin dinamikasına aid sualını cavablandıran nazir Mövlud Çavuşoğlu Qarabağ Zəfərinin "Bir millət, iki dövlət!" anlayışı və duyğusu əsasında, qətiyyətli qərarlar nəticəsində qazanıldığını diqqətə çatdıraraq deyib: "Şuşa Bəyannaməsi əsasında əlaqələrimiz yeni bir formaya gəlib. Biz müttəfiqik. Bu Bəyannamə çərçivəsində atılacaq addımlar məlumdur və bu istiqamətdə də çalışırıq".

Azərbaycan və Türkiyənin "Bir millət, iki dövlət!" anlayışı ilə bir-birini bundan sonra da qoruyacaqlarını diqqətə çatdıran nazir Mövlud Çavuşoğlu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin dostluq və qardaşlıq münasibətini xatırladaraq vurğulayıb ki, Azərbaycan tərəfi beynəlxalq platformalar da daxil olmaqla bütün məkanlarda səmimi istəklə hər zaman Türkiyənin yanında olub.

## Sənətçilərimiz Kazanda beynəlxalq opera festivalında

*əvvəli səh. 1-də*

Festivalın əsas hadisələrindən olan C.Verdinin möhtəşəm "Aida" operası Əyyub Quliyevin dirijorluğu ilə böyük uğurla gerçəkləşib. Tamaşada əsas rolları dünyanın müxtəlif opera teatrlarında solist kimi fəaliyyət göstərən tanınmış müğənnilər təqdim ediblər. Oksana Kramareva (T.Şevçenko adına Ukrayna Milli Opera Teatrı), Larisa Andreyeva (K.Stanislavski adına Dövlət Opera Teatrı), Mixail Piroqov (Novosibirsk Dövlət Opera Teatrı), Əvəz Abdullayev (Manhaym Opera Teatrı), Mixail Kazakov (Rusiya Bolşoy Teatrı), Sergey Kovnir (T.Şevçenko adına Ukrayna Milli Opera Teatrı) və Gülnara Qatinanın (M.Cəlil adına Tatarıstan Dövlət Opera Teatrı) ifası dinləyicilər tərəfindən ayaq üstə alqışlanıb.

Qeyd etmək lazımdır ki, tamaşaya biletlər artıq festivalın ilk günləri ərzində operasevərlər tərəfindən əldə olunub.

Şalyapin Beynəlxalq Opera Festivalı Tatarıstan Dövlət Opera Teatrı ilə dirijor Əyyub Quliyevin ikinci əməkdaşlığıdır. 2021-ci ilin may ayında həmin teatrda Rudolf Nureyev Beynəlxalq Balet Festivalı çərçivəsində Mariinski Teatrı (Sankt-Peterburq) Primorsk səhnəsinin (Vladivostok) balet truppası tərəfindən dahi Azərbaycan bəstəkarı Fikrət Əmirovun "1001 gecə" baleti nümayiş olunmuşdu. Azərbaycanlı xoreoqraf Eldar Əliyevin quruluş verdiyi tamaşanı dirijor pultu arxasında Əyyub Quliyev idarə etmişdi.

## İşğaldan azad edilmiş ərazilər Azərbaycan-Moldova əməkdaşlığı üçün yeni meydan ola bilər

Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popeskunu qəbul edib.



Prezident İlham Əliyev ötən ilin dekabrında Moldova Prezidenti Maya Sandu ilə Brüsseldə keçirdiyi görüşü məmnunluqla xatırlayıb və ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli inkişafı üçün böyük potensialın olduğunu vurğulayıb.

Niku Popesku Moldova Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev Moldovanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Maya Sanduya çatdırmağı xahiş edib.

Nazir Niku Popesku ölkələrimiz arasında diplomatik münasibətlərin olduğu 30 ilə yaxın müddətdə həmrəylik prinsipindən çıxış edərək Azərbaycan və Moldovanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini deyib. Moldovalı nazir iki ölkənin müxtəlif sahələrdə əməkdaşlığı üçün geniş imkanların olduğunu bildirib, konkret layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

***

Bizim siyasi tərəfdaşlığımız yüksək səviyyədədir. İqtisadi əməkdaşlığı və digər sahələrdə əlaqələri də gücləndirmək niyyətindəyik.

Moldova Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popesku bu sözləri fevralın 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

Görüşdə iqtisadi, ticarət, enerji, humanitar, mədəni və digər sahələrdə ikitərəfli əlaqələrin inkişafı üçün mövcud potensialdan istifadə olunması ətrafında fikir mübadiləsi aparıblar. Həmçinin görüşdə iqtisadi münasibətlərə xüsusi diqqətin ayrılmasının önəmli olduğu qeyd edilib və bu xüsusda, Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Ceyhun Bayramov moldovalı həmkarına 2020-ci ilin 44 günlük müharibəsindən ötən müddətdə bölgədə mövcud olan vəziyyət, üçtərəfli (Azərbaycan, Ermənistan, Rusiya) bəyanatların icrası və bu xüsusda Azərbaycan tərəfindən atılan addımlar, delimitasiya prosesi, habelə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri ilə bağlı məlumat verib.

Niku Popesku Moldovanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb. Hazırkı səfərin mövcud əlaqələrin dərinləşməsinə təkan verəcəyinə ümidvar olduğunu bildirib.

Tərəflər Azərbaycanın azad edilmiş ərazilərində infrastrukturun yenidən qurulması layihələri, bu xüsusda ərazilərin tez bir zamanda minalardan təmizlənməsinin əhəmiyyəti və prosesə Moldova ekspertlərinin cəlb edilməsi məsələləri ətrafında geniş fikir mübadiləsi aparıblar.

Xatırladaq ki, Azərbaycan və Moldova əsası 1997-ci ildə qoyulmuş GUAM regional əməkdaşlıq təşkilatında təmsil olunurlar.

## Ölkəmiz Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda fəxri qonaq olacaq

### İki dəfə pandemiya üzündən təxirə salınan forum bu il keçirilə bilər

Azərbaycan IX Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda "fəxri qonaq ölkə" statusunda iştirak edəcək.

Forumun rəhbəri Yeqor Moskvin bu barədə Rusiya Federasiyasının mədəniyyət naziri Olqa Lyubimova ilə görüşündə bildirib. Azərbaycandan başqa Almaniya və Fransa da budəfəki Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunun qonaq ölkələri olacaq.

Yeqor Moskvinin sözlərinə görə, forumun dörd əsas istiqamətdə – incəsənət, muzeylər və mədəni irs, kino, həmçinin kreativ sənaye istiqamətlərində təşkil olunması nəzərdə tutulur.

Rusiyanın mədəniyyət naziri Olqa Lyubimova ölkələr tərəfindən foruma həm rəsmi şəxslərin, həm də intellektual və yaradıcı elitanın göndərilməsinin mühümlüyünü qeyd edib. O deyib: "Postpandemiya reallıqları forumun gündəliyinin əsasını təşkil edə bilər. Bizim qurumlar əldə olunan təcrübə və perspektivlər barədə söhbət aça, əcnəbi həmkarları ilə onların ölkəsində baş verən dəyişiklikləri müzakirə edə bilərlər".

Xatırladaq ki, Azərbaycanın ənənəvi olaraq qatıldığı Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda "fəxri qonaq ölkə" statusunda iştirak etməsi barədə qərar 2018-ci ildə qəbul olunmuş, bununla bağlı iki ölkənin mədəniyyət nazirləri tərəfindən birgə bəyanat imzalanmışdı. IX Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumu 2020-ci ilin, sonra isə 2021-ci ilin noyabrına təyin olunsa da, hər iki dəfə pandemiya səbəbindən təxirə salındı. Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumu axırıncı dəfə 2019-cu ildə keçirilib. Nəhayət, bu il forumun 10-12 noyabr tarixində təşkili planlaşdırılır.

Forum çərçivəsində Dövlət Ermitajında silsilə tədbirlərin və Azərbaycan mədəniyyəti nümunələrindən ibarət daimi ekspozisiyanın təşkili də nəzərdə tutulur.

## Pol Nadarın Bakıdan İstanbul və Daşkənd yolu

*əvvəli səh. 1-də*

Azərbaycan Milli İncəsənət Muzeyinin elmi işlər üzrə direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Xədicə Əsədova qeyd etdi ki, "Pol Nadar. Bakıya əsrarəngiz səyahət" sərgisi muzeydə nümayiş etdirilən maraqlı layihələrdən biridir: "Bu günə qədər bir çox fotoqraflar ölkəmizin tarixinə, mədəniyyətinə həsr olunmuş şəkillər çəkiblər. Onlardan biri də Pol Nadardır. Onun çəkdiyi fotolara baxdıqda sanki Bakının XIX əsrin sonlarındakı tarixinə səyahət edirsən. Sərgi böyük maraq doğurdu. Təsadüfi deyil ki, sərginin açılışından bu günə qədər muzeyə gələn hər bir ziyarətçi Pol Nadarın lentə aldığı fotolara tamaşa edir...".




Layihənin kuratoru Könül Rəfiyeva vurğuladı ki, Pol Nadarın Bakıya səfəri zamanı çəkdiyi yerlər 1890-cı ildə tamam fərqli görünürdü: "Ona görə də onun fotoreportajı paytaxtımız haqqında böyük əhəmiyyət kəsb edən sənədli materiallardır. Nadar küçəni, tövlələri və bazarları, səyyar tacirləri, oradan keçən köçəriləri və yeni şəhər cəmiyyətini, ailələri, uşaqları fotolentə alıb. Bu şəkillər Fransa Mədəniyyət Nazirliyinin arxivində saxlanılan orijinal neqativlərdən çap olunub...".

K.Rəfiyeva çıxışının sonunda layihənin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirdi.

Sonra onlayn olaraq konfransa qoşulan Fransanın Memarlıq və İrs Multimedia Kitabxanasının (MAP) fotoqrafiya şöbəsinin rəhbəri, "Nadar kolleksiyası" üzrə ekspert Matild Falqiyer mövzu ətrafında çıxış edərək, Felixs və Pol Nadarların həyat və fəaliyyəti haqqında məlumat verdi. Konfrans iştirakçılarının sualları cavablandırıldı.

Xanım Matild Falqiyer Fransanın Memarlıq və İrs Multimedia Kitabxanasının fotoqrafiya şöbəsinin rəhbəri olmaqla yanaşı, həmçinin mədəni irsin qorunması ilə məşğuldur. O, 2018-ci ildə "Nadar ailəsi, fotoqrafiya əfsanəsi" sərgisinin kataloquna öz töhfəsini verib və "Pol Nadar – Payram, İpək yolu üzərində fotoqrafiya dialoqu" kitabının həmmüəlliflərindəndir.

Sonda iştirakçılar muzeydəki sərgi ilə tanış oldular.

Xatırladaq ki, "Dahilərin portretləri", "Bakı" və "Türküstana səyahət" adlı üç tematik hissədən ibarət olan "Pol Nadar. Bakıya əsrarəngiz səyahət" adlı sərgi fevralın 15-dək ziyarət üçün açıqdır.

**Nurəddin Məmmədli**

## "Ətəyinizdəki daşları ataraq xoş niyyət göstərməyə çalışın"

### Azərbaycan XİN: "Erməni tərəf Azərbaycan Mədəniyyət Nazirliyinin bəyanatından yalan çıxarışlar edir"

Ermənistan XİN-in yaddaşını təzələyirik: Ermənistan 30 ilə yaxın bir müddətdə Azərbaycanın ərazilərinin bir hissəsini hərbi işğal altında saxlayaraq bu ərazilərdə genişmiqyaslı qeyri-qanuni fəaliyyət, o cümlədən urbisid, kultursid və ekosid törədən bir ölkədir.

Bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib.

XİN rəsmisi qeyd edib ki, Ermənistan işğal dövründə Azərbaycanın 9 şəhərini və yüzlərlə kəndini darmadağın edib. Bu ərazilərdəki tarixi, mədəni, dini abidələr viran qoyulub, talan edilib.

Ermənistan işğal altında saxladığı ərazilərdə törətdiyi məqsədyönlü dağıntıları gizlətmək üçün onilliklər ərzində bu ərazilərə UNESCO missiyasının səfərinin qarşısını alıb. Bu fakt UNESCO-nun 2005-ci ildə dərc etdiyi fəaliyyət hesabatında aydın şəkildə əks olunub.

Eyni zamanda Ermənistan öz ərazisindəki Azərbaycanın mədəni irsini tamamilə məhv edib. Ermənistan son 30 ildə beynəlxalq hüquq, o cümlədən humanitar hüquq normalarını tapdalayıb; 1949-cu il Cenevrə Konvensiyası, UNESCO-nun 1954-cü və 1970-ci illər konvensiyalarını kobud şəkildə pozub. Ermənistanın yuxarıda sadalanan vandalizminin nəticələri beynəlxalq media və müstəqil ekspertlər tərəfindən geniş şəkildə sənədləşdirilib və işıqlandırılıb.

"Bütün bu qeyd edilənlər fonunda görünür Ermənistan XİN-i Azərbaycan Mədəniyyət Nazirliyinin bəyanatından yalan çıxarışlar edərək öz qeyri-qanuni əməllərini pərdələmək məqsədi güdür.




Lakin qonşu ölkənin rəsmi qurumu unudur ki, Ermənistandan fərqli olaraq, Azərbaycan tarixi-mədəni irsinə dini və etnik zəmində ayrı-seçkilik etmir. Azərbaycan bütün dünyada tolerantlıq və mədəni müxtəliflik nümunəsidir.

Ermənistan XİN-ə tövsiyəmiz budur ki, ətəyinə yalan, uydurma, iftira dolu daşları yığmaqla özünü daha da dərin və çıxılmaz vəziyyətə salmasın, əksinə, ətəyindəki daşları ataraq, xoş niyyət və əməllər göstərməyə çalışsın", – XİN rəsmisi vurğulayıb.

Xatırladaq ki, Azərbaycan Mədəniyyət Nazirliyi bir sıra xarici kütləvi informasiya vasitələrində ölkəmizin işğaldan azad edilmiş ərazilərindəki mədəni irs mövzusunda yer alan qərəzli xəbərlərlə bağlı 7 fevral tarixində rəsmi məlumat yaymışdı. Məlumatda qeyd olunurdu ki, Azərbaycan tarixi-mədəni irsinə onun dini-etnik mənşəyindən asılı olmayaraq hər zaman hörmətlə yanaşıb. Bu yanaşma, eyni zamanda, işğaldan azad edilmiş ərazilərimizdə yerləşən tarixi-mədəni irsə münasibətdə də sərgilənir. Buna əyani sübut olaraq Şuşada başlamış genişmiqyaslı bərpa-quruculuq prosesinin məscidlərlə yanaşı, iki xristian kilsəsini də əhatə etməsini göstərmək olar.

Məlumatda həmçinin qeyd olunurdu ki, Mədəniyyət Nazirliyi tərəfindən işğaldan azad edilmiş ərazilərdə müvafiq monitorinq aparılır. O cümlədən işğaldan azad edilmiş ərazilərdə qədim alban xristian irsi də tədqiq edilir, bununla bağlı yaradılan işçi qrupa xarici ekspertlər də cəlb olunub.

Erməni tərəfi bu məlumatdan sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə guya erməni irsinə aid abidələri dəyişdirmək niyyətində olduğunu iddia edən açıqlamalar yaymışdı.

# "Nizamidən Nəvaiyə qədər: dövrləri bağlayan tellər"

## Moskvada elmi-praktik konfrans keçirilib

əvvəli səh. 1-də

Nizaminin xatirəsinin Azərbaycanda, o cümlədən onun doğma Gəncə şəhərində əbədiləşdirildiyini qeyd edən Polad Bülbüloğlu Rusiyada da dahi mütəfəkkirin adının hər zaman əziz tutulduğunu deyib. 1941-ci ildə blokadada olan Leninqrad şəhərində Dövlət Ermitajının ovaxtkı direktoru İosif Orbelinin təşəbbüsü ilə dahi mütəfəkkirin 800 illiyinin təntənəli qeyd edildiyini xatırladan səfir 1991-ci ildə Peterburqun sabiq meri Anatoli Sobçakın iştirakı ilə eyni binada Nizaminin 850 illik yubileyi ilə bağlı tədbirin keçirildiyini də yada salıb. Bildirib ki, elə həmin il Moskvada, hazırda Azərbaycan səfirliyinin yerləşdiyi binanın yanında yerləşən parkda şairin abidəsi ucaldılıb. Bu gün də insanlar parka gələrək abidənin qarşısına gül-çiçəklər qoyur, Nizaminin əziz xatirəsini yad edirlər.

Səfir onu da diqqətə çatdırıb ki, 2002-ci ildə Nizaminin daha bir abidəsi Sankt-Peterburq şəhərində ucaldılıb. Abidənin təntənəli açılış mərasimi Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Azərbaycan Prezidenti, ümummilli lider Heydər Əliyevin iştirakı ilə keçirilib.

Çıxışının sonunda Polad Bülbüloğlu Nizaminin yaradıcılığına müraciət edərək şairin poeziyasından bir parçanı oxuyub.

Konfransda Özbəkistan Respublikasının Rusiyadakı səfiri Botirjon Asadov, MDU-nun Asiya və Afrika Ölkələri İnstitutunun direktoru Aleksey Maslov, Avrasiya Xalqları Assambleyası baş katibinin birinci müavini Svetlana Smirnova, Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırali, Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin rektoru Qulçexra Rixsiyeva, Özbəkistan Milli Universiteti Tarix fakültəsinin dekanı Alişer Muminov, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli və digərləri çıxış ediblər. Natiqlər Nizami və Nəvainin həyat və yaradıcılığı haqda danışıb, onların əsərlərində bəşəriyyətə ünvanlanmış çağırışları qeyd ediblər.

Sonra konfrans öz işini seksiyalar üzrə davam etdirib. "XXI əsrdə nizamişünaslıq (Nizami Gəncəvinin anadan olmasının 880 illiyi)", "Nizami Gəncəvi yaradıcılığında ədalət axtarışı", "Ə.Nəvai yaradıcılığında Nizaminin humanizm prinsiplərinin varisliyi", "Nizami Gəncəvi və İntibah məsələləri" mövzularında məruzələr dinlənilib.

Tədbirin bilavasitə təşkilatçısı – Moskva Dövlət Universiteti Asiya və Afrika Ölkələri İnstitutunun Mərkəzi Asiya və Qafqaz ölkələri kafedrasının müdiri, tarix elmləri doktoru, professor Jibek Sızdıkova bildirib ki, Şərq poeziyasının iki dahi şairi – Nizami və Nəvaiyə həsr edilmiş belə elmi konfransın keçirilməsi təsadüfi deyil. Alim qeyd edib ki, Nizami Şərq Renessansının banisi hesab edilirsə, Nəvai də Nizami ideyalarının layiqli davamçısı sayıla bilər: "Nəvai Nizami yaradıcılığına yaxşı bələd idi. Nəvai də insanı tərənnüm edirdi. Onun məhəbbət lirikası və fəlsəfi lirikası çox məşhurdur. Buna görə mən belə bir konfrans təşkil etməyi qərara aldım ki, biz bütün Şərq poeziyasının, xüsusən türk ədəbiyyatı və mədəniyyətinin tərkib hissələrini görə bilək".




J.Sızdıkova bildirib ki, Nizami və Nəvainin yaradıcılığının əsrlər boyu, peşəsindən asılı olmayaraq hər bir insanın qəlbinə nüfuz etməsinin səbəbi barədə düşünərkən rus şairi Pasternakın "dövrləri bağlayan tellər" sözlərini xatırlayıb: "Konfransın adını da "Nizamidən Nəvaiyə qədər: dövrləri bağlayan tellər" qoymağı qərara aldım...".

Alim eyni zamanda dünyanın bir çox ölkələrində bu mövzuya böyük maraq göstərildiyini, konfransa qoşulmaq istəyənlərin sayının çox olduğunu da diqqətə çatdırıb.

Qeyd edək ki, 2021-ci ildə Nizami Gəncəvinin 880 illiyi ilə yanaşı, böyük özbək şairi Əlişir Nəvainin də 580 illiyi tamam olub.

# "Xarıbülbülün rəngləri" – musiqi və rəsmlərdə



Fevralın 9-da Beynəlxalq Muğam Mərkəzində "Xarıbülbülün rəngləri" adlı tədbir keçirildi. Tədbir "Kaspi" uşaq musiqi və incəsənət məktəbi ("Kaspi" liseyləri nəzdində məktəb) və "Müasir Azərbaycan Psixoloqları" İctimai Birliyi nəzdində "Xarıbülbül fidanları" könüllülər təşkilatının təşəbbüsü ilə reallaşdı.






Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşən tədbirdə şəhid övladlarının ebru sənəti (su üzərində rəsm) əsasında hazırladıqları əl işləri nümayiş olunurdu. On iki şəhid övladının 2 ay ərzində hazırladıqları Qarabağ ornamentlərindən ibarət sərgidə uşaqların təxəyyül və düşüncələrinin rənglərlə təsviri təqdim edildi. Azərbaycan bayrağı, azad Şuşa, digər tematik əl işləri uşaqların tariximizə olan marağından soraq verirdi.

Sərginin nümayişindən sonra "Kaspi" uşaq musiqi və incəsənət məktəbi şagirdlərinin konsert proqramı təqdim edildi.

Tədbirdən əvvəl Azərbaycan Respublikasının Dövlət himni səsləndi, şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi.

"Müasir Psixoloji Dəstək" İctimai Birliyinin sədri Aida Nəbiyeva çıxış edərək uşaqların sənətə olan marağından söz açdı. Bildirdi ki, sərgilənən əsərlərin hər birinin vətənpərvərlik ruhunda olması şəhid övladlarının vətən sevgisini nümayiş etdirir. O, tədbirin keçirilməsində dəstək olan hər kəsə minnətdarlığını ifadə etdi.

"Kaspi" liseylərinin direktoru Məhəmməd Nağıyev şagirdlərə yaradıcı fəaliyyətlərində uğurlar arzuladı.

Konsert proqramı məktəbin xorunun ifasında "Ulu vətən" mahnısı ilə başladı. Rəngarəng nömrələrdə Üzeyir Hacıbəyli, Tofiq Quliyev, Vaqif Mustafazadə və Faiq Sücəddinovun əsərləri ilə yanaşı, Avropa bəstəkarlarının fortepiano və vokal əsərləri də səsləndi.

**L.Azəri**

# 44 günlük savaş və Şuşa zəfəri haqqında Azərbaycan-Türkiyə bədii filmi çəkiləcək



əvvəli səh. 1-də

Aktyor seçimlərinin hələ başlanmadığını qeyd edən prodüser Yalçın Çoban təşkilati işlər bitdikdən sonra kastinqlərin keçiriləcəyini bildirdi.

Yaradıcı heyət Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə görüş keçirildiyini də dedi. Layihənin büdcəsi və ssenarisi haqqında suallara cavabında heyət üzvləri bildirdilər ki, nazirlik və əlaqədar təşkilatlarla müvafiq razılıq əldə ediləndən sonra bu barədə konkret danışmaq olar.

Yaradıcı heyət ötən il Azərbaycanda polis işini təcəssüm etdirən filmi lentə aldığını və yaxın vaxtlarda təqdimatının keçiriləcəyini də diqqətə çatdırdı. Vurğuladı ki, Azərbaycana birgə əməkdaşlıqla bağlı ümumilikdə 8 layihə ilə gəlmişik. Müxtəlif janr və mövzuları əhatə edən layihələrin əsas məqsədi Azərbaycan və Türkiyə kinematoqrafçıları arasında təcrübəyə rəvac və əlaqələrin inkişafına təkan verməkdir.

Azərbaycan kinosu haqqında az bilgiyə sahib olduqlarını da etiraf edən yaradıcı heyətin üzvləri mədəniyyətlərin təbliği və tanıtımı üçün sənət sahəsində çoxsaylı layihələrin vacibliyini qeyd etdilər.

**Lalə**

# "Şuşa İli"nə həsr olunmuş pyes müsabiqəsi

Mədəniyyət Nazirliyi "Şuşa İli"nə həsr olunmuş pyes müsabiqəsi elan edir.

Müsabiqəyə indiyə qədər heç bir teatrda səhnələşdirilməyən pyeslər qəbul olunur.

Müxtəlif janrlı əsərlərin yazılması arzuolunandır. Bir müəllif müsabiqəyə yalnız bir əsər təqdim edə bilər. Müsabiqəyə qatılmaq üçün yaş məhdudiyyəti yoxdur.

Əsərlər sentyabrın 1-nə qədər qəbul edilir.

Qalib pyes müəllifi 2000 AZN məbləğində pul mükafatı ilə təltif olunacaq və dövlət sifarişi əsasında tamaşaya qoyulacaq.

İştirakçılar pyeslə birlikdə özləri haqqında məlumatı, şəxsiyyət vəsiqəsinin surətini, əlaqə nömrələrini em.aliyev@culture.gov.az ünvanına göndərməlidirlər.

Ünvan: Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 84

Telefon: (012) 493-06-03

# Tacikistanla mədəni əlaqələr və UNESCO çərçivəsində əməkdaşlıq müzakirə olunub

Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əskərov Tacikistanın UNESCO üzrə Milli Komissiyasının məsul katibi Zülfiyə Burhon ilə görüşüb. Görüşdə Azərbaycan ilə Tacikistan arasında mövcud əlaqələr və UNESCO çərçivəsində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



Z.Burhon ikitərəfli münasibətlərin inkişafından məmnunluğunu ifadə edib, o cümlədən mədəniyyət sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün əlverişli imkanların mövcudluğunu diqqətə çatdırıb.

Səfir Ə.Əskərov Azərbaycanın UNESCO-nun ümumi fəaliyyətinə verdiyi önəmli töhfə barədə danışıb, sivilizasiyalar, mədəniyyətlər və xalqlar arasında dialoqun təşviqi istiqamətində dövlət siyasətindən bəhs edib.

Diplomat buna misal olaraq Bakıda ənənəvi Dünya Mədəniyyətlərarası Dialoq Forumu və Beynəlxalq Humanitar Forumun keçirildiyini, ölkəmizin UNESCO-nun mühüm tədbirlərinə ev sahibliyi etdiyini deyib.

Diplomat Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın qurumun təbliğ etdiyi universal dəyərlərin yayılmasında, ümumbəşəri mədəni irsin qorunması və gələcək nəsillərə çatdırılmasında xidmətlərindən söz açıb. Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən dünyanın müxtəlif ölkələrində mədəniyyət, təhsil, elm, səhiyyə və s. sahələrdə layihələrin həyata keçirildiyi qeyd olunub.

Səfir Azərbaycan torpaqlarının otuz ilə yaxın Ermənistan tərəfindən işğal altında saxlanılması, o cümlədən tarixi-mədəni və dini abidələrin dağıdılması barədə də danışaraq 2020-ci ildə işğaldan azad edilən torpaqlarda quruculuq və mədəni irsin bərpası istiqamətində işlərin başlandığını diqqətə çatdırıb.

Görüşdə ikitərəfli və UNESCO çərçivəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi, mütəmadi görüşlərin təşkili, elm, təhsil, mədəniyyət, humanitar sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# Kino sənayesini özünütəcriddən sığortalamağın bir yolu müştərək filmlərin istehsalıdır

Fevralın 7-dən Moskvada Azərbaycan kinosunun ilk irimiqyaslı retrospektiv nümayişi keçirilir. Filmlərin surəti Azərbaycan Dövlət Film Fondu tərəfindən təqdim edilib. Ən müxtəlif illərə aid kinematoqrafiyamızı əhatə edən filmlər Moskvanın "İllüzion" kinoteatrında nümayiş edilir.

Fevralın 15-dək davam edəcək proqramda Azərbaycan kinosunun ötən əsrin 30-cu illərinə aid səssiz filmlərindən başlayaraq müxtəlif dövrlərdə, eləcə də sovet dövrünün son illərində çəkilmiş, həmçinin müasir rejissorların beynəlxalq festivallarda uğur qazanmış filmləri – ümumilikdə 19 ekran əsəri yer alıb.

Layihənin təşəbbüskarı Aleksandra Lavrova və retrospektiv baxışın kuratoru, Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri, kinorejissor Rüfət Həsənov Rusiyanın "Seans" jurnalına proqrama daxil edilmiş filmlər və Azərbaycan kinosunun özəllikləri barəsində danışıblar.

Azərbaycanda bədii kinonun ilk onillikləri haqqında məlumat verən Rüfət Həsənov sonra diqqəti post-stalinizm dövrünün kinosu və "altmışıncılar" nəslinin uğurlarına çəkib: "Altmışıncı illərdə yeni nəsil kinematoqrafçılar gəldilər: Rüstəm və Maqsud İbrahimbəyovlar, Rasim Ocaqov, Eldar Quliyev. Onların filmlərində milli kolorit sezilsə də, ümumilikdə filmlər o dövrün trendi ilə səsləşərək çəkilirdi. Məsələn, Eldar Quliyevin "Bir cənub şəhərində" filmi italyan neorealizmi ruhunda çəkilib. Filmə baxanda dərhal görünür ki, müəlliflər Fransa kinosunun "yeni dalğa"sına da yaxşı bələd imişlər. Bu baxımdan həmin illər milli kinematoqrafiyamızın çox parlaq bir dövrünü əhatə edir. Kino gündəlik gerçəkliklərə müraciət edərək ilk dəfə ekrana tamaşaçıların hər gün rastlaşdıqları insanları gətirdi...".



1970-ci illərin sonundan və xüsusən 1980-ci illərin əvvəllərindən kinematoqrafçıların sosial münaqişələr mövzusuna müraciət etdiklərini deyən Rüfət Həsənov müstəqillik əldə ediləndən sonra film müəlliflərinin istiqamət axtarışlarının əsaslı şəkildə dəyişdiyini, dünya kinosu kontekstində öz yerini dərketmə prosesinin başlandığını vurğulayır: "1990-cı illərdə kinoya şəxsi sərmayəçilər, sponsorlar, əcnəbi fondlar gəldi. Lakin ən əsası bu dövrdə yeni bədii vasitələrin axtarışı başladı".

Bu xüsusda Ayaz Salayevin tərki-dünya tərzinin təcəssümü olan "Yarasa", Vaqif Mustafayevin "Hər şey yaxşılığa doğru", Hüseyn Mehdiyevin "Özgə vaxt" kimi filmləri qeyd edilir: "Biz bu filmləri retrospektiv proqramımızda görəcəyik. Mənə elə gəlir ki, bu filmləri ümumi motivlər, hansısa eyni təmas nöqtələri birləşdirir. Deyərdim ki, bu filmlər öz səsinin, yeni dilin axtarışı, uçuş və azadlıqdır, bütün bunlar o filmlərə baxanda hiss olunur. ..."Yarasa" ilə "Özgə vaxt" vaxtilə Berlin Beynəlxalq Film Festivalının iştirakçısı olublar. "Hər şey yaxşılığa doğru" Oberhauzen festivalında dörd mükafat almışdı...".

Azərbaycan kinosunda böhranın 2000-ci illərdə başlandığını deyən Rüfət Həsənov bunun nəsillər arasındakı əlaqənin qırılması ilə bağlı olduğunu deyir: "Yeni müəlliflər heç də dərhal meydana çıxmağa hazır deyildilər. Əksəriyyəti ölkə xaricində təhsil alırdı – Avropada, ABŞ-da, Rusiyada. Retrospektiv proqramı "Sonuncu" filmi açacaq. Bu Aleksandr Proşkinin emalatxanasının məzunu Fariz Əhmədovun filmidir. Mənə elə gəlir ki, yeni Azərbaycan kinosunun yaranma mərhələsi kimi 2013-cü ili hesab etmək olar. Məhz həmin il bir neçə gənc (və ən əsası müstəqil) müəllifin filmi aparıcı beynəlxalq kinofestivalların – Lokarno, Karlovı Varı, Toronto, Rotterdam və s. müsabiqə proqramında paralel olaraq iştirak edirdi. Retrospektivdə biz Hilal Baydarovun Venesiya kinofestivalının müsabiqə proqramına qatılmış, Tokio kinofestivalından isə Qran-pri ilə qayıtmış "Səpələnmiş ölümlər arasında" filmini təqdim edirik...".

"Biz kinematoqrafiyamızın özünütəcrid şəraitində yaşamasını istəmirik" deyən nazirliyin şöbə müdirinin sözlərinə görə, kinosənayedə özünütəcriddən sığortalamanğın yollarından biri müştərək filmlərin istehsalıdır: "Məsələn, retrospektiv proqramımızda Rasim Ocaqovun "Qətldən yeddi gün sonra" filmi də var. Bu film 1991-ci ildə ABŞ və SSRİ kinematoqrafçılarının birgə səyi ilə çəkilib. Artıq o zaman müştərək kino istehsalı üçün zəmin yaradılırdı... Müştərək kinolayihələrə daha geniş yol açmaqdan ötrü nazirlik olaraq bir il əvvəl Film Komissiyası – "Filming Azerbaijan" yaratdıq. Əlbəttə, görüləsi işlər çoxdur, amma bu faktın özü nikbinliyə köklənməyə əsas verir. Bizim bu istiqamətdə artıq yaxşı bir təcrübəmiz var – mən "Netflix"in Azərbaycana gəlib iri kinolayihə üçün bir neçə səhnə çəkməsini nəzərdə tuturam. Azərbaycanda nə qədər çox əcnəbi kino xadimi film çəksə, prodüserlik etsə, birgə istehsalat institutu və deməli, bütövlükdə kino sənəti inkişaf edəcək...".

# Azərbaycan Yaradıcı Sənayelər Federasiyası üzvlük üçün qəbul elan edib

Azərbaycan Yaradıcı Sənayelər Federasiyası 2021-ci ildə ölkəmizdə yaradıcı sənayenin inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən fərdlər, şirkətlər və ictimai təşkilatlarla dövlət qurumlarının, biznes və qeyri-kommersiya tərəfdaşlarının əlaqələndirilməsi, beynəlxalq və yerli layihələrin idarə olunması məqsədilə təsis olunub.

Federasiya 2022-ci il ərzində müvafiq dövlət, özəl və qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələr aparır və müxtəlif layihələr, tədbirlər və digər fəaliyyətlər üçün hazırlıq və planlaşdırma işlərini həyata keçirir.

Bu məqsədlə yaradıcılıq sənayesi və mədəniyyət biznesi (yaradıcı və mədəniyyət sənayeləri: ədəbiyyat və nəşriyyat, dizayn, musiqi və teatr, memarlıq və moda sənəti, sənətkarlıq və təsviri sənət, film, audiovizual – video və foto sənəti, reklam, TV və radio yayımı, oyunlar və yaradıcı texnologiyalar) sahəsində fəaliyyət göstərən fərdlər, şirkətlər və ictimai təşkilatlar federasiyaya qoşulmağa və "Kreativ Azərbaycan" (https://creative.az) brendi altında yaradıcılıq və mədəniyyət iqtisadiyyatının inkişafına, eləcə də, ölkəmizin bu sahədə tanınmasına töhfə verməyə dəvət edilir.

Federasiyaya üzv olmaq üçün tələblər:

- Fərdi şəxslər: yaradıcı sənayelərin azı bir sahəsində iş təcrübəsi və real fəaliyyəti olan fərdi sahibkarlar, kreativ biznes peşəkarları, yüksək yaradıcı istedada malik şəxslər və s.
- Şirkətlər: yaradıcı sənayelərin azı bir sahəsində iş təcrübəsi və real fəaliyyəti olan özəl şirkətlər.
- QHT-lər: yaradıcı sənayelərin azı bir sahəsində iş təcrübəsi və real fəaliyyəti olan QHT-lər, ictimai birliklər və fondlar.

Federasiyaya üzv olmaq istəyən fiziki və hüquqi şəxslərdən aşağıdakı əlaqə vasitələri ilə müraciət etmələri xahiş olunur. Təsdiq olunan müraciətlərlə bağlı üzvlük barədə bildiriş göndəriləcək.

Əlaqə: Azərbaycan Yaradıcı Sənayelər Federasiyası
Bakı şəhəri, "Azure" Biznes Mərkəzi – 9-cu mərtəbə, 53-cü otaq
Tel: 055-206-70-88. E-mail: acif@creative.az

# Astarada qayaüstü təsvir, Lerikdə kurqanlar aşkarlanıb



Astara və Lerikdə aparılan arxeoloji tədqiqatlar zamanı yeni tapıntılar aşkar edilib.

Bu barədə AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin direktoru, aqrar elmlər doktoru Fərman Quliyev məlumat verib.

Onun bildirdiyinə görə, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əməkdaşları ilə birgə Astara rayonunun ərazisində aparılan tədqiqatlar zamanı Sım kəndində bölgə üçün nadir hesab edilən yeni qayaüstü təsvirlər aşkarlanıb. Lerik rayonunun Mistan kəndi ərazisində isə Son Tunc dövrünə aid olunması ehtimal edilən beş iri və orta ölçülü kurqan tapılıb.

# Azad edilmiş ərazilərdə itmək təhlükəsi olan 65 bitki növü var

## "Qırmızı kitab"a daxil edilməsi tövsiyə olunub

2021-ci ildə Qarabağın bir sıra rayonlarının (Ağdərə, Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl) bitki genetik ehtiyatlarının floristik təftişi, bioekoloji xüsusiyyətləri və istifadə imkanları təhlil edilib. Tədqiqatlar nəticəsində 9 genofond qrupuna aid 541 növün yayılması aşkar edilib.

AMEA Genetik Ehtiyatlar İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Zeynal Əkbərov bildirib ki, torpaqların işğaldan azad olunması nəticəsində bu ərazilərdə yayılmış bitki və heyvan genetik müxtəlifliyinin müqayisəli tədqiqi üçün imkan yaranıb. Genetik Ehtiyatlar İnstitutu işğaldan azad edilmiş ərazilərdə bitki genetik ehtiyatlarının təftişi, toplanması, mühafizəsi, eləcə də Qarabağ və Şərqi Zəngəzurun torpaq-iqlim şəraitinə uyğun yeni bitki sortlarının yaradılması işini prioritet elan edib və planlı şəkildə elmi-tədqiqat fəaliyyətinə başlayıb.

Alimin sözlərinə görə, aparılmış təhlillər göstərib ki, qeyd edilən bitkilərdən perspektivli növlərə əsasən Füzuli (127 növ) və Ağdam (93 növ) rayonlarında rast gəlinir. Ərazidə itmək təhlükəsində olan 65 bitki növü aşkar edilərək Azərbaycan Respublikasının "Qırmızı kitab"ının yeni nəşrinə daxil edilməsi tövsiyə olunub.

Baş direktor işğaldan azad edilmiş ərazilərdə ekspedisiyaların keçirilməsi üçün plan və yol xəritələrinin hazırlandığını da vurğulayıb.

# Yerlərdə "Şuşa İli" tədbirləri

Regionlardakı mədəniyyət müəssisələrində "Şuşa İli" çərçivəsində müxtəlif tədbirlər, sərgi və təqdimatlar keçirilir.






Sabirabad Regional Mədəniyyət İdarəsi (RMİ) Hacıqabul rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağın döyünən ürəyi - Şuşa!" müsabiqəsinin yekun tədbiri keçirilib. Hacıqabul rayon Heydər Əliyev Mərkəzinin direktoru Aytən İmanova və başqaları mövzu ətrafında çıxış ediblər. Çıxışlardan sonra qaliblər diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Ağstafa RMİ Tovuz rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin əməkdaşları tərəfindən N.Tusi adına məktəb-liseyin foyesində "Şuşanın bu günü" adlı səyyar sərgi təşkil edilib.

Masallı RMİ Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Qarabağın döyünən ürəyi" adlı tədbir təşkil olunub. Tədbirdə "Şuşa" sənədli filmi nümayiş olunub, "Şuşa - 270" adlı sərgiyə baxış keçirilib.

## Masallı Xalq teatrının tamaşası

Masallı RMİ-nin tabeliyindəki N.Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində fəaliyyət göstərən Xalq teatrının "Şuşa – açılan səhərim" adlı tamaşasının təqdimatı olub.




Öncə Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov çıxış edərək Şuşa şəhərinin xalqımızın tarixindəki yerindən, bu əsrarəngiz sənət ocağının mədəniyyətimizə bəxş etdiyi görkəmli şəxsiyyətlərindən söhbət açıb.

Daha sonra tamaşa nümayiş olunub. Səhnə əsərində Şuşanın mədəni mühiti və tanınmış sənət adamlarının fəaliyyəti əks etdirilib, eyni zamanda şəhərin uzun işğal dönəmi və azadlığına qovuşması mövzuları monoloq və şeir kompozisiyaları vasitəsilə diqqətə çatdırılıb.

Tamaşaya rejissor Cəmaləddin Əliyev quruluş verib, səhnə və musiqi tərtibatı Elsevər Əliyev və Ruslan Zahidova aiddir. Tamaşada teatrın kollektivi və Masallı Dövlət Regional Kollecinin tələbələri çıxış edir.

# Müxtəlif səpkili xəbərlər



Biləsuvar RMİ Salyan rayon Mərkəzi Kitabxanasında "Mübariz İbrahimov Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzidir" adlı məlumat saatı təşkil edilib. Məktəblilərə cəsurluq, igidlik, mərdlik nümayiş etdirən Milli Qəhrəman haqqında məlumat verilib.

Sumqayıt RMİ S.Rüstəmov adına 3 nömrəli Uşaq incəsənət məktəbinin kollektivi Vətən müharibəsi qazisi Anar Əsədovu ziyarət edib. Görüş zamanı qazinin keçdiyi döyüş yolundan söhbət açılıb.

Sumqayıt şəhərindəki Heydər Əliyev Mərkəzi, şəhər MKS-nin Səməd Vurğun adına Mərkəzi Kitabxanası Uşaq şöbəsinin birgə təşkilatçılığı ilə 8 fevral – "Beynəlxalq



nənələr və babalar günü" ilə əlaqədar tədbir təşkil olunub. Tədbirdə Anar Şükürov adına 25 saylı orta məktəbin şagirdləri şeirlər söyləyib, "Kimyaçı" Mədəniyyət sarayının özfəaliyyət ansamblının üzvləri musiqi nömrələri ifa ediblər.

Sumqayıt RMİ-nin tabeliyindəki Sumqayıt şəhər Q.Qarayev adına 1 nömrəli Uşaq musiqi məktəbinin şagirdləri onlayn formatda keçirilən "Milad royalı" müsabiqəsində uğur qazanıblar. Fortepiano ixtisası üzrə şagirdlərdən Valeriya Olxova 1-ci dərəcəli, Ceyran Talıblı, Ayla Heydərova 2-ci dərəcəli diploma layiq görülüblər, Aytac Vəlizadə laureat adını alıb.

Sumqayıt şəhərindəki S.Rüstəmov adına 3 nömrəli Uşaq incəsənət məktəbinin skripka şöbəsinin şagirdi Nuray Məmmədova Qazaxıstanın Nur-Sultan şəhərində onlayn formatda keçirilən 1-ci beynəlxalq klassik musiqi müsabiqəsində Qran-pri mükafatına layiq görülərək diplomla təltif edilib.

Ağstafa RMİ-nin rəisi Nurəddin Mehdiyev Tovuz rayon mədəniyyət müəssisələrinə baş çəkib, görülən işlərlə tanış olaraq müvafiq tövsiyə və tapşırıqlarını verib.




Ağcabədi RMİ Ağcabədi rayon Heydər Əliyev Mərkəzində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar olaraq "Şəhid şəhər" adlı sərgi təşkil edilib. Fevralın 28-dək davam edəcək sərgidə fotolar, sənədlər, kitab və jurnallar, mərkəzdə fəaliyyət göstərən rəsm kursunun üzvlərinin əl işləri nümayiş etdirilir.

Saatlı rayonu Əhmədbəyli kəndində şəhid Elvin Həsənovun xatirəsini əbədiləşdirmək məqsədilə inşa olunan "Şəhid bulağı" istifadəyə verilib. Açılış mərasimində şəhidin ailə üzvləri ilə bərabər Sabirabad RMİ Saatlı rayon Mədəniyyət Mərkəzinin əməkdaşları da iştirak ediblər.

Sabirabad RMİ Saatlı rayon Mədəniyyət Mərkəzinin Şirinbəyli kənd Folklor evi və kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Narkotik vasitələrə qarşı birgə mübarizə aparaq" mövzusunda maarifləndirici görüş təşkil edilib. Çıxış edənlər bəşəri bəla olan narkomaniyanın fəsadlarından danışıblar.

İsmayıllı RMİ İsmayıllı rayon MKS-nin təşkilatçılığı və rayonun Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin birgə əməkdaşlığı ilə "Oxuyaq, oxumağı sevdirək" adlı tədbir keçirilib. Çıxış edənlər cəmiyyətin inkişafında kitab və kitabxananın əhəmiyyətini vurğulayıblar.



Şəki RMİ-nin rəisi vəzifəsinin səlahiyyətlərini icra edən Tərlan Nəsibov Zaqatala rayonundakı mədəniyyət müəssisələrinə baş çəkib, görülən işlərlə tanış olub. O, səfər zamanı Vətən müharibəsi şəhidi Əhməd Laçınovun ailəsi ilə də görüşüb.

Masallı RMİ Yardımlı rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzi Yardımlı nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Gənclər üçün əyləncə zamanı" adlı layihə gerçəkləşdirilib. Gənclər asudə vaxtlarının daha səmərəli təşkili üzrə fikir mübadiləsi aparıb, bir sıra oyunlar oynayıblar. Mərkəzdə həmçinin Xocalı soyqırımının ildönümü ilə əlaqədar "XX əsrin faciəsi" adlı tədbir keçirilib. Çıxış edənlər faciənin baş vermə səbəbləri və ermənilərin uzun tarixi dövr ərzində ölkəmizə qarşı olan ərazi iddiaları barədə danışıblar. Mövzu üzrə sərgiyə baxış keçirilib.



Gəncə RMİ Gəncə şəhər T.Hacıyev adına 2 nömrəli Uşaq musiqi məktəbinin müəllim və şagird heyətinin iştirakı ilə böyük bəstəkar Qara Qarayevin (1918-1982) anadan olmasından 104 illiyinə həsr olunmuş konsert keçirilib. Konsertdə bəstəkarın əsərlərindən parçalar ifa olunub.

**Hazırladı: N.Məmmədli**

# Alban-udi icması azad olunmuş ərazilərdəki məbədlərlə bağlı bəyanat yayıb

## "Qarabağdakı erməni kilsəsinin mənsubları ilə də əməkdaşlığa, işğaldan azad edilmiş ərazilərdə birgə yaşamağa hazırıq"




Azərbaycan Alban-udi xristian dini icması azad olunmuş ərazilərdəki alban məbədləri ilə bağlı bəyanat yayıb.

"Biz – Alban Apostol Kilsəsinin varisi olan Azərbaycan Alban-udi dini icması işğaldan azad olunmuş ərazilərdə son bir ildə tarixi-dini abidələrin, o cümlədən xristian alban irsinə aid məbədlərin qorunması və bərpası istiqamətində həyata keçirilən ardıcıl tədbirləri yüksək qiymətləndirərək dəstəkləyir, Azərbaycan dövlətinin iradəsi və əzmi sayəsində bu prosesin mümkün qədər qısa vaxtda uğurla başa çatacağına inamımızı ifadə edirik", – deyə bəyanatda vurğulanır.

Qeyd olunur ki, ciddi mina təhlükəsinin olmasına, çətin yolsuzluq şəraitinə baxmayaraq, Alban-udi dini icmasının üzvlərinin işğaldan azad olunmuş ərazilərdəki tarixi alban məbədlərini ziyarət etmələri üçün bütün zəruri tədbirlər həyata keçirilir: "Nəticədə biz udilər son bir ildə Alban Apostol Kilsəsinin mənəvi varisləri kimi işğaldan azad olunmuş Laçındakı Ağoğlan, Kəlbəcərdəki Xudavəng monastırlarını, eləcə də Hadrut qəsəbəsi və Tuğ kəndindəki alban məbədlərini dəfələrlə ziyarət edə bilmişik".

Bəyanatda bildirilir ki, Qafqazda xristianlığın rəsmi din kimi strukturlaşmasının tarixi Alban kilsəsindən başlayır. Qədim qaynaqlar sübut edir ki, tək Azərbaycanın deyil, bütün Qafqazın dini-mədəni həyatında silinməz izlər qoymuş Alban kilsəsi xristian dünyasında ən qədim kilsələrdən biridir və apostol mənşəlidir. Alban kilsəsinin qədimliyini təkcə tarixi faktlar yox, həm də mövcudluğunu dövrümüzə qədər qoruyub saxlamış qədim alban məbədləri təsdiqləyir.

Təəssüf ki, müxtəlif təzyiq və təsirlərdən sonra 1836-cı ildə Alban Apostol Kilsəsi ləğv edilib, onun maddi və mənəvi irsinin bir qisminə erməni Qriqorian Kilsəsi sahib çıxmağa çalışıb. Nəticədə Azərbaycanda, xüsusilə Qarabağda tarixi alban məbədlərinin böyük bir qismi qriqoryanlaşdırılıb, tarixi abidələrimizlə yanaşı, arxiv materialları və sənədlər saxtalaşdırılıb. Alban irsinin, o cümlədən yaşı yüz illərlə, hətta min illərlə ölçülən alban məbədlərinin qriqoryanlaşdırılması son yüz ildə Ermənistanın dövlət siyasətinə çevrilib. Bunun nəticəsidir ki, indiki Ermənistan ərazisində və Azərbaycanın işğal edilmiş torpaqlarında bir dənə də olsun alban məbədi saxlanılmayıb. Ermənilər ya alban məbədlərinin arxitekturasını dəyişdirərək qriqoryanlaşdırıb, ya da arxitekturasını dəyişdirə bilmədiyi məbədləri dağıdıblar.

Qeyd edilir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən və ölkəmizdə vicdan azadlığı tam təmin olunduqdan sonra Alban Apostol Kilsəsinin statusunun bərpası və üzləşdiyimiz ədalətsizliyin aradan qaldırılması üçün tarixi fürsət yaranıb. Udi ziyalılarının təşəbbüsü ilə 2003-cü ildə Alban-udi xristian icması yaradılıb və dövlət qeydiyyatından keçib. Azərbaycan hökumətinin dəstəyi ilə Şəki rayonunun Kiş kəndində yerləşən və Qafqazda "kilsələrin anası" hesab olunan apostol Yelisey məbədi bərpa edilib, 2006-cı ildə isə udilərin kompakt halda yaşadığı Qəbələ rayonunun Nic qəsəbəsindəki "Çotari" alban-udi kilsəsinin rəsmi açılışı olub: "Alban-udi xristian icmasının dirçəldilməsi və alban abidələrinin bərpası tarixi ədalətsizliyin aradan qaldırılması, ölkəmizdəki tolerantlıq mühitinin qorunub-saxlanılması baxımından təkcə Azərbaycan deyil, həm də bütün xristian dünyası üçün mühüm əhəmiyyət kəsb edir. Biz udilər Alban Apostol Kilsəsinin mənəvi varisləri olaraq, Qəbələ və Oğuzdakı alban məbədləri kimi, işğaldan azad edilmiş ərazilərimizdəki digər alban məbədlərinin də yüksək səviyyədə bərpa olunacağına inanırıq".

Bəyanatda o da vurğulanır ki, Azərbaycan xalqının tolerantlığı, Azərbaycan dövlətinin bütün dinlərin nümayəndələrinə olan qayğısı və dəstəyi Erməni Qriqorian Kilsəsinin mənsublarına da humanist münasibət göstəriləcəyini deməyə əsas verir: "Bunun bariz nümunəsi Bakı şəhərinin mərkəzində yerləşən Azərbaycan hökuməti tərəfindən qorunub-saxlanılmış, bərpa olunmuş "Müqəddəs Qriqori" erməni kilsəsidir. Əsrlər boyu erməni Qriqorian Kilsəsinin təsir və təzyiqlərinə, mənimsəmə və saxtalaşdırmaqla alban irsinə böyük zərbə vurmasına baxmayaraq, sülh və insanlıq naminə biz də onlarla əməkdaşlığa, işğaldan azad edilmiş ərazilərdə birgə yaşamağa hazır olduğumuzu bildiririk".

# Tahir Salahovla “Dialoq”

## Rəssamla həyat və sənət söhbətlərindən ibarət kitabın təqdimatı

Azərbaycanın dünya şöhrətli rəssamı Tahir Salahovun (1928-2021) həyat və yaradıcılığına həsr edilmiş “Dialoq” kitabı (rus dilində) fevralın 8-də Bakı Kitab Mərkəzində təqdim olunub.





2021-ci ilin martında, Tahir Salahovun sağlığında işıq üzü görən kitabın müəllifi musiqişünas Raya Abbasovadır. Nəşr Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəstəyi ilə ərsəyə gəlib. Leyla Əliyevanın “Böyük sənətkarın dünyası” sərlövhəli məqaləsi də nəşrdə yer alıb.

Kitab Azərbaycanın, SSRİ-nin, habelə Rusiyanın Xalq rəssamı, iki dəfə Azərbaycan Dövlət mükafatı laureatı, SSRİ və Rusiya Dövlət mükafatları laureatı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, UNESCO-nun Beynəlxalq Plastik Sənətlər Assosiasiyasının vitse-prezidenti Tahir Salahovla dialoq janrında yazılıb. Müəlliflə “Dialoq”da Tahir Salahov yaşadığı çətin və şərəfli ömür, həmçinin həyatının fərqli dövrləri ilə bağlı səmimi etiraflar edir.

Təqdimat mərasimində Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva vaxtilə redaktoru olduğu jurnalda da Tahir Salahovla müsahibələrin dərc edildiyini vurğulayaraq, fikirlərini və xatirələrini bölüşüb: “Tahir Salahov uşaqlığında atasını itirmiş, lakin həyatda uca zirvələrə qalxmış bir şəxsiyyət olub...”.

G.Rzayeva kitabın müəllifi, musiqişünas Raya Abbasovaya bu əməyinə görə təşəkkürünü bildirib. Diqqətə çatdırıb ki, kitabın ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadır.

İçərişəhər Muzey Mərkəzinin direktoru Əminə Məlikova qeyd edib ki, kitab üzərində iş 2017-ci ildə başlansa da 2021-ci ildə bitib. Kitabın gec bir vaxtda ərsəyə gəlməsinə səbəb Tahir Salahovun şəxsən iş prosesinə cəlb olunması idi: “Yadımdadır ki, o, Moskvadan gəlib kitabı görəndə çox sevindi. Dahi rəssam, güclü şəxsiyyət Tahir Salahov haqqında müxtəlif dövrlərdə kitablar çap oluna bilər, amma rəssamın sağlığında onun işıq üzü görməsi xüsusi əhəmiyyət kəsb edir. Kitabda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın rəssama ünvanladığı təbrik məktubları da yer alıb. Mehriban xanım Əliyeva onu planetar bir rəssam, bəşəriyyətin rəssamı adlandırmışdır. Tahir Salahovun “Bəşəriyyət naminə” əsəri insana sanki bir enerji verir, onu həyata ruhlandırır...”.

Xalq yazıçısı Anar rəssamla bağlı xatirələrini danışıb: “Mən şəxsən Tahirlə dost olmasam da, bir-birimizi görəndə yaxın insanlar kimi görüşürdük. Tahir mənim şəklimi çəkəndə xəbərsiz idim. Həmin o anlar mənim yadımdan çıxmayacaq. Çünki mən yaxın dostumu itirdiyimdən portretim kədərli alınmışdı. O portret indi də mənim evimdədir. Paradoks odur ki, rəssamlıqda o dövrdə abstraksionizm, pop-art və digər cərəyanlar meydana çıxmışdı. Amma o realizmə sadiq qalaraq bu janrın yeni səhifələrini açmaqla sübut etdi ki, insanları hələ heyrətə gətirmək mümkündür”.

Tahir Salahovun İçərişəhərdəki ev-muzeyinin direktoru Səadət Mirzəyeva bildirib ki, bu kitab sənətkarın sağlığında işıq üzü görən nəşrlərdən sonuncusudur. S.Mirzəyeva Tahir Salahovla bir yerdə çalışdığını, onunla sərgilərdə xoş anlar yaşadığını söyləyib.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva, Xalq rəssamı Arif Hüseynov çıxış edərək Tahir Salahov şəxsiyyəti haqqında düşüncələrini bölüşüblər. Bildiriblər ki, Tahir Salahov dünyada realist rəssam kimi şöhrət tapıb. Onun rəssamlıqda sərt üslubu dünyaya, həyata baxışı və fəlsəfi düşüncələri, rənglərin ən incə çalarları ilə öz ifadəsini tapıb. O, fəlsəfi düşüncələrini fırça ilə çox aydın və anlaşılan obrazlı şəkildə çatdıran qüdrətli sənətkardır.

Kitabın müəllifi, musiqişünas Raya Abbasova kitabın yazılma prosesindən danışıb: “Onun haqqında o qədər söz demək istəyirəm ki, fikrimi ardıcıl qura bilmirəm. Ancaq demək istədiklərimi kitabda olduğu kimi yazmışam. Çox sevinirəm ki, onun haqqında yazmağı məhz mənə tapşırıblar. Kitab uzun müddətə yazıldı. Yaxşı ki, belə oldu. Əgər yubileyi üçün yazılsa idi, sonradan baş verən mühüm hadisələr kitaba daxil edilməzdi. Tahir Salahov haqqında rəssam kimi danışmaq az olardı, o hərtərəfli bir insan idi. Kimlərlə ünsiyyət qurardusa həmin şəxsin yaddaşında pozulmaz iz buraxırdı. Bu kitab Tahir Salahovu olduğu kimi əks etdirir. Onunla etdiyim söhbətlərin axıcı keçdiyi üçün kitab “Dialoq” adlanır...”.

# Milli İncəsənət Muzeyinin direktoru beynəlxalq festivalın münsiflər heyətində

Ukrayna Mədəniyyət və İnformasiya Siyasəti Nazirliyinin təşkilatçılığı ilə 2021-ci ilin dekabr ayından 2022-ci ilin fevral ayınadək 5-25 yaş arasında uşaq və gənclər üçün МАЛЮЙ.UA IV Beynəlxalq İncəsənət festivalı keçirilir. Qaliblərin əsərlərindən ibarət sərgi 14-28 fevral tarixndə Kiyev şəhərində İ.P.Kavaleridze Muzey-emalatxanasında gerçəkləşəcək.

Beynəlxalq münsiflər heyətinə ümumilikdə 12 ölkədən (İspaniya, İtaliya, ABŞ, Kanada, Belçika və s.) tanınmış rəssam, heykəltəraş, mədəniyyət və incəsənət xadimləri daxildir. Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, Əməkdar incəsənət xadimi, professor Çingiz Fərzəliyev də münsiflər heyətinin üzvü qismində dəvət olunub.

Qeyd edək ki, festivalın əsas məqsədi Ukrayna və digər xalqlar arasında mədəniyyət diplomatiyasının inkişafına, eləcə də müxtəlif ölkələrin nəsilləri arasında əlaqələrin yaradılmasına və möhkəmləndirilməsinə töhfə verməkdir.

# Akademik Musiqili Teatr “Fəcr” festivalında iştirak edir

Azərbaycan Dövlət Akademik Musiqili Teatr İranda keçirilən 40-cı “Fəcr” Beynəlxalq Teatr Festivalında iştirak edir. Yaradıcı heyət 9-13 fevral tarixində qonşu ölkədə səfərdə olacaq.



Ənənəvi festivalda bir neçə dəfə ölkəmizi təmsil edən Akademik Musiqili Teatrı fevralın 11-də “Bir nəfəs qədər” (S.Qulamovun pyesi əsasında) musiqili dramını, 12-də isə “Utancaq qız” (F.Dostoyevski) monotamaşasını Tehranda nümayiş etdirəcək. Səhnə əsərlərinin hər biri iki dəfə göstəriləcək.

Rejissor Samir Qulamovun müəllifi olduğu pyes əsasında quruluş verdiyi “Bir nəfəs qədər” tamaşası Zəfər salnaməmizi qanları ilə yazan şəhidlərimizin əziz xatirəsinə ithaf olunub. Əsərin süjet xəttində Vətən müharibəsinin könüllü döyüşçülərindən biri olan Vətən adlı bir gəncin həyat hekayəsindən bəhs edilir.

Rus yazıçısı Fyodor Dostoyevskinin “Utancaq qız” fantastik povesti əsasında Xalq artisti Cənnət Səlimovanın quruluşunda hazırlanan eyniadlı monotamaşada Əməkdar artist Şövqi Hüseynov çıxış edir. O, həmçinin əsəri Azərbaycan dilinə tərcümə edib.

Hər iki tamaşanın bədii rəhbəri Akademik Musiqili Teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayevdir. Qeyd edək ki, Akademik Musiqili Teatrın yaradıcı heyətindən savayı teatrın direktoru Ə.Lalayev də bir neçə dəfə münsiflər heyətinin üzvü və ekspert kimi “Fəcr” festivalında iştirak edib.

# Ələsgər sözü musiqi qanadlarında

## Saz-söz ustadının 200 illik yubileyinə sözardı

Xalq şairi Osman Sarıvəlli Aşıq Ələsgəri təbiətin, insanlığın, düzlüyün, sədaqətin, dostluğun-qardaşlığın, mənəvi təmizliyin, gözəlliyin yorulmaz, unudulmaz nəğməkarı adlandırırdı. Bir əsrdən çox ömür sürmüş, həyatının əsas hissəsini xalqına sədaqətlə xidmət etmiş qüdrətli şair, ustad aşıq sazını-sözünü, zəngin yaradıcılığını ən qiymətli yadigar kimi gələcək nəsillərə miras qoyub...



Ötən il 200 illiyi dövlət səviyyəsində qeyd edilən Aşıq Ələsgər (1821-1926) Azərbaycan aşıq sənətinin inkişafında məxsusi yeri olan ustadlar ustadıdır. O, eyni zamanda dövrünün gözüaçıq, hazırcavab bir şairi, cəmiyyətdə baş verən hadisələri məntiqi ilə duyub mənalandıran, mövzularını poetik yüksəkliyə qaldıra bilən qüdrətli sənətkardır. Onun yaradıcılığı xalq ruhlu ədəbiyyatımızın ən gözəl nümunələrindən hesab olunur. Təsadüfi deyil ki, bir sıra şeirləri bəstəkarlarımızın da diqqətini cəlb edib, unudulmaz nəğmələrə, aşıqların repertuarında əbədi yer tutan saz havalarına çevrilib.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutu (MİI) Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi şöbəsinin müdiri, sənətşünaslıq üzrə elmlər doktoru, professor İradə Köçərli “Aşıq Ələsgərin sazlı-avazlı, musiqili misraları” adlı məqaləsində yazır: “Aşıq Ələsgər Azərbaycan dilinin zəngin bədii imkanlarını üzə çıxarıb, ifadə vasitələrindən, səs boyalarından məharətlə yararlanıb. Aşıq Ələsgərin poetik şeirlərini, bu baxımdan, “musiqili misralar” kimi dəyərləndirmək düzgün olardı. Aşıq Ələsgərin şeirlərinin klassik aşıq havalarına uyarlığı, musiqiyə yatımlılığı, fikrimizcə, məhz bu səbəblərlə də bağlıdır. Ələsgər şeirində istifadə olunan bədii tapıntılar – təkrarlar, qafiyələr və cinas sözlər və onların çoxmənalılığı, yerində işlədilməsi qanunları aşığın poetikasının musiqiyə bağlılığına məntiqi zəmin yaratmışdır. O, bütün şeirlərini sazına, avazına yansıdırdı. Bu baxımdan, demək mümkündür ki, o, hər bir musiqi havasının özəl melodik-intonasiya quruluşunu çox dərindən dərk edir və bununla da, poetik və musiqi mətninin tam üzvi birliyinə nail olurdu, hamı tərəfindən qəbul edilir və sevilirdi”.

Məlum olduğu kimi, Aşıq Ələsgər qədim Azərbaycan eli Göyçə aşıq mühitinin yetirməsidir. Sufi-dərviş ocağının nümayəndəsi hesab olunan Miskin Abdal, Ağ Aşıq, Aşıq Alı məhz burada yaşayıb-yaradıblar. Miskin Abdalın ideya-estetik görüşləri, Ağ Aşıq, Aşıq Alı kimi böyük sənətkarların yaradıcılığının ən müsbət və xarakterik xüsusiyyətləri yeni zaman və mühit çərçivəsində məhz Aşıq Ələsgərin simasında cəmlənib.

Təsadüfi deyil ki, klassik aşıq havalarının bir çox parlaq nümunələri – “Göyçəgülü”, “Göyçə qaragözü”, “Göyçə gözəlləməsi”, “Köhnə Göyçə”, “Kəvəri”, “Məmmədsöynü”, “Nəcəfi” və digərləri məhz bu mühitdə yaranmış və bütün Azərbaycana və ondan da uzaqlara yayılıb. Adları çəkilən bu saz havaları Aşıq Ələsgərin sözlərinə oxunduğu zaman, sanki yeni bir məzmun kəsb edir, yeni bir hiss-həyəcanla, yeni bir ovqatla təravətlənir və özünəməxsus bir ruhla təzələnir.

İradə Köçərli qeyd edir ki, Aşıq Ələsgərin səsi haqqında müxtəlif fikirlər səslənməkdədir. Bəzi fikirlərə görə, ustadın səsi güclü, tembri isə o dərəcədə də məlahətli olmayıb: “Fikrimizcə, əgər belə olsaydı o, tarixdə bu qədər dərin iz buraxa bilməzdi. Çox ola bilsin ki, bu fikirlər onun yaşlı vaxtları ilə, səsinin azaldığı illərlə bağlı olaraq yaranmışdır. Əlbəttə, vokal musiqini oxumaq üçün səs çox önəmlidir. Lakin tarix boyu pəsdən, kiçik diapazonla, hətta xırıltılı səslə belə qəlbləri fəth edən ifaçılar kifayət qədər olmuşdur. Əsas məsələ ifa zamanı əsərin duyğu ilə çatdırılmasında və özünəməxsus dərin şərhindədir. Təəssüf ki, Aşıq Ələsgərin səsi haqqında da əlimizdə bir məlumatımız yoxdur. Bu bir həqiqətdir ki, Aşıq Ələsgər şair deyildi, əsl aşıq idi və öz şeirlərini insanlara, ilk növbədə, səsi və sazı ilə çatdırmışdır. Elə bu səbəbdən də sevilmişdir. Onun aşağıdakı misralarına nəzər yetirək:

*Bir sazım var, yox pərdəsi, nə simi,*
*Onu çalıb, kim tərpədər nə simi?...*

bu misralar, eyni zamanda Aşıq Ələsgərin sazda mükəmməl çalğısına, ifaçı kimi ustalığına da bir işarədir...”.

***

Aşıq Ələsgər yaradıcılığı Azərbaycan bəstəkarlarının da ilham qaynağı, söz saxlancı olub. Sənətşünas bildirir ki, hazırda Memarlıq və İncəsənət İnstitutunun arxivində saxlanılan materiallar arasında Azərbaycan aşıqlarının ifasından Aşıq Ələsgərin sözlərinə oxunmuş və nota köçürülmüş aşıq havaları var. Aşıq havalarının nota köçürülməsi sahəsində bəstəkar, folklorşünas Qənbər Hüseynlinin xidmətləri xüsusilə qeyd edilməlidir. O, Aşıq Ələsgərin sözlərinə oxunmuş “Dübeyti”, “Göyçə gözəlləməsi”, “Qəhrəmanı” havalarını nota yazıb. Həmin havalar N.Əliverdibəyov, B.Hüseynli tərəfindən fortepiano ilə oxumaq üçün işlənilib və 1960-cı ildə çap edilib.

Notasalmalar arasında aşıqşünas alim T.Məmmədovun da mühüm xidmətləri olub. O, “100 Azərbaycan klassik aşıq havası” əsərində Aşıq Ələsgərin şeirlərinə oxunmuş “Ağır Şərili”, “Dolanım başına”, “Kürdü-gəraylı” və s. havaları yazıya alıb. Bir çox aşıq havaları və xalq mahnısı statusu qazanmış musiqi nümunələri isə məhz Aşıq Ələsgərin sözləri ilə məşhurlaşıb və sevilib. “Çərşənbə günündə”, “Qəmərcan”, “Gözəl”, “Hər yetən gözələ”, “Dolanır”, “Ey bimürvət”, “Ay sarı köynək”, “Tellərin” (“Ordubadı” havası üstə), “Bilmirəm” və s. Aşıq Ələsgərin lirik şeirləri daim bəstəkarları da özünə cəlb edib.

Bəstəkar Q.Hüseynli notasalmalarla yanaşı, Aşıq Ələsgərin sözlərinə çoxlu sayda vokal əsərlər də yazıb. “Buxağa düşdü”, “Söz qanan ola”, “Olan oldu”, “Gördüm”, “Çərşənbə günündə”, “Qadan alım”, “Gördüm” kimi mahnıları Aşıq Ələsgərin şeirləri kimi səmimi, xoş ovqatlı, aramlı, saf, ülvi hisslərin üstünlük təşkil etdiyi miniatür musiqili-poetik əsərlərdir. Xalq tərəfindən sevilən bu vokal əsərləri ilə bəstəkar olduqca lirik, təravətli, bənzərsiz mahnılar, mahnı müntəxəbatı yaradıb.

Aşıq Ələsgərin şeirlərinə musiqi yazmış sənətkarlar arasında Səid Rüstəmov (“Ay gözəl”, “Ay ceyran”), Hökumə Nəcəfova (“Yanıram mən”), Ramiz Mirişli (“Güləndam”), Şəfiqə Axundova (“Könül istər”), Cavanşir Quliyev (“Xoş gəldin”, “Miniatürlər”) kimi bəstəkarları qeyd etmək olar.

Aşıq Ələsgərin yaradıcılığına daha çox müraciət edən bəstəkarlardan biri də Hacı Xanməmmədovdur. O, aşığın sözlərinə silsilə mahnılar bəstələyib. “Keçdi”, “Ceyran”, “Güllü”, “Qadan alım”, “Niyə döndü”, “Sona keçdi”, “Telli”, “Getmə amandı” mahnıları bu gün də sevilir. Dərbəndin söz-sənət mühitində doğulub boya-başa çatan bəstəkar üçün aşıq yaradıcılığı və Aşıq Ələsgər şeirləri daim çox doğma olub. Aşıq Ələsgər poeziyasının zəngin obrazlar aləmi, dilinin sadə və axıcılığı, gözəlliyin çoxçeşidli rəng çalarları və onların poetik tərənnümü, eləcə də, aşıq havalarının özünəməxsusluğu, nikbin ovqatı və s. bəstəkarı, sanki, musiqi yazmağa özü sövq edib. Bu mahnılar aşıq poeziyası və musiqisinin bulaqtək dupduru milli ruhunu, melodik, ritmik, məqam-intonasiya özəlliklərini özündə daşıyır.

Aşıq Ələsgər yaradıcılığı və bəstəkarlıq mövzusunda sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zümrüd Dadaşzadənin maraqlı mülahizələri var. Alim “Cavanşir Quliyev: total musiqi axtarışlarında” adlı məqaləsində bəstəkarın 1982-ci ildə aşığın sözlərinə yazdığı “Dönübdü” miniatürünü təhlil edir. Qeyd edir ki, bəstəkarı geniş dinləyici kütləsinə tanıdan və sevdirən məhz onun nəğmələri – məxsusi folklor siması, büllur tək şəffaf və saf musiqi dili ilə seçilən mahnılarıdır. Musiqişünas vurğulayır ki, hər zaman sözdən təkan alan bəstəkar a kapella xor üçün Aşıq Ələsgərin qoşmasına yazdığı “Dönübdü” miniatüründə bu niyyətin gözəl illüstrasiyasını yarada bilib, xalq dilində yazılmış misraları xalq ruhlu musiqi ilə ifadə edib.

Aşıq Ələsgərin şeirlər toplusuna yazılmış ön sözdə tədqiqatçı, ustad sənətkarın nəvəsi İslam Ələsgər aşığın hamının işlətdiyi adi sözlərdən hamını heyrətdə qoyacaq bir poeziya yaratmaq iqtidarını qeyd edir. Xor üçün nəzərdə tutulan “Dönübdü” əsərində də bəstəkar C.Quliyev bu səviyyəyə nail olub. Hamıya bəlli intonasiya və ritmləri zövqlə bir araya gətirərək təravətli xor incisi – Ələsgərtək “sadəliyin möcüzəsi”ni yaradıb.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı “Aşıq Ələsgər poeziyasının musiqidə təcəssümü” adlı məqaləsində bəstəkar H.Xanməmmədovun ustad aşığın yaradıcılığına müraciəti barədə söz açır. Qeyd edir ki, Aşıq Ələsgər poeziyası sanki bəstəkarın melodiyaları ilə vəhdət yaradır. Bu mənada 1976-cı ildə “Sevil” vokal ansamblının ifasında səslənən “Qurban belə gəlinə”, 1979-cu ildə Gülağa Məmmədovun ifasında “Sona keçdi”, 1981-ci ildə Şövkət Ələkbərovanın ifasında “Sarıköynək” və nəhayət, 1983-cü ildə Gülağa Məmmədovun oxuduğu “Telli” mahnılarını qeyd etmək olar. Bəstəkarın “Getmə, amandır” mahnısından sonra Sevda İbrahimova da 1986-cı ildə həmin şeirə mahnı bəstələyib. S.İbrahimovanın ustadın şeirinə daha bir mahnısı da “İncimərəm” adlanır.

Aşıq Ələsgərin “Qadan alım” rədifli şeirinə ustad xanəndə Əlibaba Məmmədov da müraciət edərək “Mahur” muğamı üstə mahnı qoşub. Mahnı ilk dəfə elə xanəndənin öz ifasında səslənərək lentə alınıb. Bu şeirə bəstəkar Adil Gəray da müraciət edərək 1955-ci ildə “Çeşmə başında” adlı mahnı yazıb. Həmin mahnı Tükəzban İsmayılovanın ifasında lentə alınıb. İlk qadın bəstəkarlarımızdan olan Ağabacı Rzayeva 1972-ci ildə ustadın “Xoş gəldin” rədifli şeirinə mahnı bəstələyir və həmin əsər Gülağa Məmmədovun ifasında səslənərək könülləri oxşayır. “Qədəm qoyub asta-asta, Sən bu diyara xoş gəldin” misraları ilə başlanan şeir C.Quliyevin də diqqətini cəlb edir. Onun 1978-ci ildə bəstələdiyi “Xoş gəldin” adlı mahnı müğənni Akif İslamzadənin ifasında gözəl səslənib.

Bəstəkar Ramiz Mustafayevin də Aşıq Ələsgərin sözlərinə silsilə mahnıları var. Uzun illər Azərbaycan Teleradio Verilişləri QSC-də fəaliyyət göstərən Cahangir Cahangirov adına xor kollektivinin bədii rəhbəri olan R.Mustafayev bu silsilədən həm özünün və həm də digər bəstəkarların mahnılarını xor üçün də işləyib.

Ümumiyyətlə, Aşıq Ələsgər öz əbədi sənəti ilə nəsillərlə qoşa addımlayır. Onun şeriyyətinin musiqi ilə qovuşması da ustadın əbədiyaşarlığının daha bir təzahürüdür.

**Lalə Azəri**

№12 (1885)
11 fevral 2022
www.medeniyyet.az

# Toyunun ildönümündə şəhid oldu...

Yadımdadır, uşaq yaşlarımda hər dəfə evdə söz düşəndə "ana, dayım haradadır?" deyə soruşardım. Anam isə hər zaman "şəhid olub, oğlum, cənnətdədir", – deyə göz yaşları ilə mənə cavab verərdi. O vaxtdan şəhidliyin ən ali mərtəbə olduğunu öyrənmişdim.



O sözlərin üstündən illər keçib. Bu gün bir daha anlayıram ki, şəhidlər həqiqətən də, ölməzdirlər. Onlar hər zaman xalqımızın qəlbində yaşayacaq. 44 günlük Vətən müharibəsində qanlarının son damlasına qədər döyüşərək şəhid olan igidlər kimi...

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızdan biri də Həsən Süleymanovdur.

Həsən İsmayıl oğlu Süleymanov 1991-ci il avqustun 25-də Ağcabədi rayonunda dünyaya göz açıb. O, üç bacının tək qardaşı olub. İlk təhsilini Ağcabədi rayon 3 saylı tam orta məktəbdə alıb. 2008-ci ildə orta məktəbi bitirərək Qazax rayonu N saylı hərbi hissəsində xidmətə yollanıb. Hərbi xidmətini snayper kimi yerinə yetirib.

2020-ci ilin Vətən müharibəsi başlayandan iki gün sonra – sentyabrın 29-da səfərbərliyə cəlb olunub.

Şəhidin həyat yoldaşı Qumru Süleymanova həmin günü belə xatırlayır: "Həsənə çağırış gələrkən o, evdə yox idi, torpaq sahəsində işləyirdi. Həsənə zəng edərək, ona çağırış gəldiyini söylədik. O, dərhal evə gəlib hazırlaşdı. Anası ona yemək çəkdi. Ancaq, o, "yeməyimi Qarabağda yeyəcəyəm" – deyərək evdən çıxdı. Həsən çox həyəcanlı idi. O, qapıdan çıxarkən övladları "ata, bizi qoyub getmə" – deyə ağladılar. Həsən onlara gələcəyini söylədi. Övladlarımızı mənə əmanət edərək, xudahafizləşdi...".

Həsən Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edir. Oktyabrın 25-də Qubadlı istiqamətində gedən döyüşlərdə şəhid olur.

Qumru Süleymanova bildirir ki, həyat yoldaşı müharibədə olan zaman imkan düşdükcə onlarla əlaqə saxlayırmış: "Sonuncu dəfə oktyabrın 24-də zəng etdi. İnamla dedi ki, "az qalıb, tez bir zamanda Qələbə xəbərini alacaqsınız...". Həsən həmin axşam Qubadlıya yollandı. Oktyabrın 25-də, toyumuzun ildönümündə şəhidlik zirvəsinə ucaldı...".

Qumru xanım söyləyir ki, Həsən atasının əmisinin adını daşıyırdı. O da 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində həlak olub: "Həsən də onun yolunu getdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

2013-cü ildə ailə həyatı quran Həsənin Fatimə və Hüseyn adlı iki övladı Vətənə əmanət qalıb.

Həsən Süleymanov oktyabrın 26-da Ağcabədi rayonu Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

Ruhu şad olsun.

**Nurəddin**

# İrəvan Müəllimlər Seminariyasının 140 illiyi silsilə tədbirlərlə qeyd olunacaq

Bu il İrəvan Müəllimlər Seminariyasının 140 illiyi qeyd olunacaq. Bununla bağlı Azərbaycan Prezidenti tərəfindən 29 dekabr 2021-ci il tarixində müvafiq sərəncam imzalanıb.



Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən İrəvan Müəllimlər Seminariyasının 140 illiyi ilə bağlı tədbirlər müəyyənləşdirilib. Tədbirlər planına əsasən, "İrəvan Müəllimlər Seminariyasının milli təhsil tariximizdə yeri və rolu" mövzusunda dəyirmi masa, "XIX əsrdə regionda dünyəvi təhsil verən İrəvan Müəllimlər Seminariyasının müəllimləri və məzunları" mövzusunda məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvləri arasında esse müsabiqəsi, seminar, sərgi və digər tədbirlər nəzərdə tutulur.

Həmçinin görkəmli maarifpərvər ziyalı Firidun bəy Köçərlinin İrəvan Müəllimlər Seminariyasında müəllim kimi fəaliyyəti ilə bağlı Respublika Uşaq Kitabxanasında məktəblilərin iştirakı ilə tədbir keçiriləcək.

Qeyd edək ki, dövlət başçısının sərəncamında da vurğulandığı kimi, XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatında İrəvan Müəllimlər Seminariyasının xüsusi yeri olub. 1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərib. Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olub, geniş mədəni-maarif işləri aparıb. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları var.

# Gürcüstanda azərbaycanlılara məxsus abidələrin qorunması və təbliği

Gürcüstandakı azərbaycanlılara məxsus maddi və qeyri-maddi mədəni irs abidələrinin rəsmi status alması, qorunub saxlanılması və təbliği istiqamətində yeni layihəyə başlanılıb.

Layihə "Həmrəylik Muzeyi" qeyri-hökumət təşkilatı tərəfindən həyata keçiriləcək. Təşkilatın rəhbəri Elnur Əlisoy bildirib ki, layihə çərçivəsində aparılacaq tədqiqat materialları və tövsiyələr çap olunaraq aidiyyəti qurumlara təqdim olunacaq.

Bu məqsədlə Kvemo Kartli bölgəsinin bələdiyyələrinin ərazilərinə çöl işləri və ekspedisiyalar təşkil olunacaq, abidələrin mövcud vəziyyəti öyrəniləcək, təmir və bərpası ilə əlaqədar hesabatlar tərtib olunacaq.

Eyni zamanda bələdiyyələrin muzeyləri və şənliklərində etnik azlıqların mədəniyyətinin təmsil olunması monitorinqi aparılacaq, qeyri-dominant etnik qrupların mədəniyyətinin qorunması və tanıdılması istiqamətində bələdiyyə büdcələrindən ayrılmış maddi vəsait analiz olunacaq.

# Maarif carçısı və uşaqların sevimli ədibi

Azərbaycan ədəbiyyatı tarixində müstəsna yeri olan şair, yazıçı, dramaturq, tərcüməçi Abdulla Şaiq həm də maarif və mədəniyyətimizin görkəmli simalarından biridir. Əməkdar incəsənət xadimi. Ömrünü xalqın maariflənməsinə həsr edən ədib milli uşaq ədəbiyyatımızın ən nadir nümunələrini yaradıb.



Mehdi Hüseyn, Nazim Hikmət, Süleyman Rəhimov, Abdulla Şaiq, Bayram Bayramov

Abdulla Axund Mustafa oğlu Talıbzadə (Abdulla Şaiq) 24 fevral 1881-ci ildə Tiflis şəhərinin Şeytanbazar məhəlləsində ruhani ailəsində dünyaya göz açıb. Altısinifli şəhər müsəlman məktəbində təhsil alır. 1893-cü ildə Xorasana ziyarətə gedən anası özü ilə Abdulla və böyük qardaşı Yusifi də aparır. Onlar orada dövrünün tanınmış maarifçisi Yusif Ziyanın məktəbində yeddi il oxuyurlar, ədəbiyyat, tarix, məntiq üzrə yaxşı təhsil alırlar. 1900-cü ildə yenidən Tiflisə qayıdırlar.

Abdulla Bakıya köçür. Maarifçilik sahəsində fəaliyyət göstərməyə başlayır. 1901-ci ildə 3-cü Oğlanlar gimnaziyasında xüsusi komissiya qarşısında imtahan verərək ana dili müəllimi şəhadətnaməsi alır. Bir müddət sonra Rus-tatar məktəbində də ehtiyat müəllim kimi işə qəbul olunur.

1906-cı ilin avqustunda Bakıda keçirilən müəllimlərin I qurultayının təşkilində yaxından iştirak edən Abdulla Şaiq qurultayda ana dili və ədəbiyyatın tədrisinə dair mütərəqqi təşəbbüslər ortaya qoyur. Nəticədə qurultay tərəfindən H.Zərdabi, F.Köçərli, M.Mahmudbəyov, S.Sani, A.Şaiq və başqalarından ibarət xüsusi komissiya yaradılır. Azərbaycan dilində müvafiq proqram hazırlamaq bu heyətə tapşırılır.

Qurultaydan bir il keçməmiş "Əlifba", "Uşaq çeşməyi" ("Uşaq gözlüyü"), "İkinci il" və "Gülzar" adlı dərsliklər ərsəyə gəlir. Abdulla Şaiq daha sonra müxtəlif illərdə bir-birinin ardınca "Milli qiraət", "Müntəxəbat", "Türk çələngi", "Ədəbiyyat", "Türk ədəbiyyatı", "Gülşəni-ədəbiyyat" adlı dərslik və proqramlar hazırlayır. Həmin dərsliklərdə Azərbaycan klassiklərinin həyat və yaradıcılığı haqqında məlumat və əsərlərindən parçalar yer alır. O həm də qadınlar üçün jurnal çıxarmaq, uşaq bağçası açmaq, kitabxana yaratmaq və kasıb uşaqları pulsuz oxutmaq kimi təşəbbüslər də irəli sürür.

Araşdırmalarda qeyd edilir ki, A.Şaiq yaradıcılığa tərcümə və qəzəllə başlasa da, ilk mətbu əsəri "Layla" adlı uşaq şeiri olub. O, 1906-cı ildən başlayaraq Azərbaycan milli uşaq poeziyasının diqqətəlayiq nümunələrini yaradır. "Dəbistan" və "Məktəb" uşaq jurnallarında dərc edilir. Həmin il "Nicat" cəmiyyəti idarə heyətinə üzv seçilir.

A.Şaiq şifahi xalq ədəbiyyatına xüsusi diqqət yetirir, yaradıcılığında bu örnəklərə geniş yer verir. "Tıq-tıq xanım", "Tülkü həccə gedir", "Yaxşı arxa" kimi mənzum nağılları maraqla qarşılanır. 1910-cu ildə yazdığı "Gözəl bahar" pyesi ilə milli uşaq dramaturgiyasının əsasını qoyur. Eyni zamanda ictimai-siyasi həyatla səsləşən "Hürriyyət pərisi", "Niyə uçdu?", "Bir quş", "XX əsrə xitab", "Şikayətlərim" və digər şeirlərini qələmə alır. Müəllif "Həpimiz bir günəşin zərrəsiyiz" şeiri ilə şər qüvvələrin xalqlar arasında nifaq salmasını ifşa edir.

Nəsr yaradıcılığına "İki müztərib və ya əzab, vicdan" yarımçıq romanı ilə başlayan ədib "Məktub yetişmədi", "Köç", "Daşqın", "İntiharmı, yaşamaqmı", "Göbələk", "Dursun", "Əsrimizin qəhrəmanları" kimi gözəl nəsr örnəkləri yaradır.

1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətini böyük sevinclə qarşılayır. 1919-cu ildə Bakı Dövlət Universitetinin yaranması ilə bağlı düşüncələrinin yer aldığı "Tələbə həyatı" pyesini yazır. Sonra yarımçıq qalan "Əsrimizin qəhrəmanları" romanını tamamlayır. Müəllif müstəqillik arzularını dilə gətirir. Dövlətçiliyimiz üçün yeni milli kadrlar hazırlanması məsələsini önə çəkir. "Yeni ay doğarkən", "Türk ədəmi mərkəziyyət Müsavata ithaf", "Arazdan Turana" kimi şeirləri ədəbi mühitdə böyük səda doğurur. "Vətənin yanıq səsi" şeirində isə şair oğuzların hünəri, Altay türklərinin qəhrəmanlığından bəhs edir. "İki mücahid" və yaxud "Atı yaralı əsgər" şeirində I Dünya müharibəsinin yaraları, erməni daşnaklarının Azərbaycan torpaqlarındakı törətdiyi vəhşiliyi, Qarabağdakı fitnə-fəsadlarına diqqət yetirir.

28 aprel 1920-ci ildə bolşeviklər Azərbaycanı işğal edir və sovet hakimiyyəti qurulur. Bütün bunlara baxmayaraq, A.Şaiq xalqın gələcəyi üçün öz ədəbi-pedaqoji fəaliyyətini davam etdirir. Çalışdığı gimnaziya "Şaiq nümunə məktəbi" adlandırılır. Ədəbi yaradıcılıqdan qalmayan A.Şaiq "Vəzifə", "Özü bilsin, mənə nə?", "Anabacı", "Əsəbi adam" kimi hekayələri və "Araz" inqilabi-tarixi romanını yazır. O həm də "Tənqid-təbliğ" teatrı üçün əsərlər qələmə alır.

Genişmiqyaslı maarifçilik işi aparan ziyalı uşaqlar üçün gözəl əsərlər yazmaqla qalmır, digər sənət dostlarını da bu işə cəlb edir. Onun "May nəğməsi", "Top oyunu", "Bənövşə", "Qərənfil", "Bülbül" kimi uşaq şeirləri, nağıl və poemaları bu gün də oxucular tərəfindən maraqla qarşılanır.

Ədəbiyyatşünas və folklorçu kimi də tanınan A.Şaiq klassik ədəbiyyatla bağlı bir sıra araşdırmalar aparıb. Azərbaycan ədəbiyyatının Xaqani, Nizami, Nəsimi, Füzuli, Xətai, Vaqif, Vidadi, Zakir, Mirzə Fətəli, Seyid Əzim, Sabir, Səhhət, Hadi, H.Cavid kimi ədiblərin yaradıcılığına işıq salıb.

Görkəmli ədib tərcümə sahəsində də uğur qazanıb. Böyük Nizami Gəncəvinin yaradıcılıq zirvəsi hesab edilən "İskəndərnamə" poemasının "Şərəfnamə" hissəsini dilimizə çevirib. O həmçinin Ə.Firdovsinin "Şahnamə" poemasından bir parçanı, V.Şekspirin "Maqbet", C.Sviftin "Qulliverin səyahəti" əsərlərini, habelə Puşkin, Lermontov, Krılov, Qorki, Nekrasov və digər rus yazıçılarının bədii nümunələrini Azərbaycan dilinə çevirib.

Xidmətləri hökumət tərəfindən yüksək qiymətləndirilən A.Şaiq 1940-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adına və dövrün bir sıra təltiflərinə layiq görülüb.

Ölkəmizdə uşaq və gənclər tərəfindən maraqla oxunan, sevilən və qəlblərdə heykəlləşən Abdulla Şaiq 24 iyul 1959-cu ildə Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn edilib.

**Savalan Fərəcov**

# "Türk dövlətləri olaraq bu təşkilatda daha da yaxınlaşacağıq"

## Hulusi Kılıç: "Türk Dövlətləri Təşkilatının çox güclü şəkildə inkişaf edəcəyinə inanıram"

2021-ci ilin 12 noyabrında İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) VIII Zirvə görüşündə qurumun adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatı (TDT) oldu. Türk dünyasının bir çox siyasətçiləri, diplomatları təşkilatın adındakı dəyişikliyin fəaliyyətinə də əhəmiyyətli təsiri olacağı qənaətindədir.

Türkiyənin Azərbaycandakı sabiq səfiri, ölkələrimiz arasında və Türk dünyasında xidmətləri ilə tanınan, Azərbaycanın "Dostluq" ordeni laureatı, İMZA Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə nümayəndəsi Hulusi Kılıç bizimlə söhbətində bu xüsusda maraqlı fikirlər bildirdi.

*– Hulusi bəy, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Türk Dövlətləri Təşkilatına çevrilməsi ilə fəaliyyətində, Sizcə, nə kimi yeniliklər olacaq?*

– Bu dəyişiklik zatən, gözlənilən idi. 2009-cu il oktyabrın 3-də Naxçıvan sazişinin imzalanmasından sonra qurulan Türk Şurası fəaliyyətini bu günədək uğurla davam etdirdi. 13 il əvvəl Naxçıvanda "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" sazişini imzalayan 4 dövlət vardı, hazırda bu rəqəm 7-dir. Bu, normal inkişafdır. Əvvəl Türk Şurası regional bir təşkilat təsiri bağışlayırdı, amma indi belə deyil. TDT artıq Avropa Birliyi, Ərəb Dövlətləri Liqası kimi beynəlxalq bir təşkilatdır.

Təşkilatın yeni adla – TDT olaraq fəaliyyəti üçün Azərbaycanın dönəm başqanlığı dövründə hazırlıqlar görüldü. 12 noyabr 2021-ci ildə də İstanbulda təşkilat yeni adla fəaliyyətə başladı. Funksiyasında da əlbəttə, dəyişiklik olacağı gözləniləndir. Siyasi, iqtisadi, mədəniyyət və turizm sahəsində çalışmaların genişlənməsi lazımdır ki, bunu da artıq görməkdəyik.

Bu təşkilat kimsəyə qarşı yaradılmayıb, tamamilə bizim dil, kök, mədəniyyət birliyimizdən irəli gələn bir quruluşdur. Yeni adı ilə bərabər təşkilat yeni fəaliyyəti ilə də regionun inkişafına çox böyük dəstək verəcək. Eyni soydan, eyni dildən olan insanların, ölkələrin birliyi və əməkdaşlığı son dərəcə təbiidir. 2022-ci ildə Türkiyənin dönəm başqanlığı zamanında da bu məsələlər yetərli şəkildə öz yerini tutacaq və daha da inkişaf edəcək.

Yeddi dövlət arasında Macarıstanın yer alması xüsusilə önəm qazandı. Avropanın mərkəzində Türk Dövlətləri Təşkilatı nümayəndəliyinin olması çox əhəmiyyətlidir. Bundan başqa, TDT nəzdində Yardım fondu quruldu ki, o da kiçik və orta biznesə dəstək verəcək, bunun da iqtisadi baxımdan əhəmiyyəti var. Avropanın enerji təhlükəsizliyini təmin etmək baxımından da bu ölkələr çox önəmlidir.



*– Türkmənistanın müşahidəçi qismində qatılması haqqında mövqeyiniz nədir?*

– Türkmənistan tərəfsiz, müstəqil bir ölkədir. TDT bir hərbi təşkilat deyil, Türkmənistan da necə ki, mərkəzi Tehranda olan İqtisadi Əməkdaşlıq Təşkilatına üzvdür, TDT-yə də üzvlüyü normaldır. Mən inanıram ki, Türkmənistan bu təşkilata tam üzv olaraq qatılacaq. Bu təşkilatın təkcə regiona deyil, dünyaya da müsbət təsiri olacaq. Çünki sülhə, barışa, iqtisadiyyata, enerji təminatına qatqısı olan bir təşkilatdır. Biz türk dövlətləri olaraq bu təşkilatda daha da yaxınlaşacağıq. Bir zamanlar aralarımızda itən əlaqələr bərpa olunacaq və bu yaxınlaşma ilə dilimizdəki ləhcə fərqləri də tədricən aradan qalxacaq. Təbii ki, bunun üçün də çox fəal olmaq, çox işləmək lazımdır.

*– TDT-nin nəzdindəki təşkilatların fəaliyyəti artırılmalıdır, yoxsa yeni qurumlar da yaradılmalıdır?*

– Katibliyi İstanbulda olan TDT-nin ümumi çətiri altında Ankarada yerləşən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY, Nur-Sultan şəhərində Beynəlxalq Türk Akademiyası, Bakıda Türk Dövlətləri Parlamentlər Assambleyası – TÜRKPA və Türk Mədəniyyəti və İrsi Fondu, yenə də İstanbulda Türkiyə Ticarət və Sənaye Palatası, Bişkekdə isə Köçəri Sivilizasiya Mərkəzi var. Bu qurumların fəaliyyətləri təbii ki, artırılmalıdır.

*– Sizcə, bu xüsusda TÜRKSOY-un üzərinə daha çox iş düşmürmü? Dil, mədəniyyət, mənəviyyat məsələləri əsasən onun fəaliyyət sahəsinə daxildir...*

– Əlbəttə, TDT yenidən təşkilatlandıqdan sonra onun tərkibindəki bütün qurumlardan, o cümlədən TÜRKSOY-dan fəaliyyətinin daha da artacağını gözləyirik. TÜRKSOY-a bəzən Türk dünyasının UNESCO-su deyilir. Ona görə də TÜRKSOY-un UNESCO kimi bir orqana çevrilməsi vacibdir. Mən TDT-nin gələcəyinin çox gözəl olacağına inanıram. Ölkələrimiz arasında ticarət mübadiləsi daha çox artdıqdan sonra, türkdilli dövlətlər bir-birinə dəstək olmaqla, nisbətən az inkişaf etmiş ölkələr də inkişaf edəcək.

*– Yəni, Avropa Birliyində olduğu kimi?*

– Bəli. Mən Fransada Avropa Birliyi hüququ üzrə də təhsil almışam. Zatən, TDT Avropa Birliyi modelindədir.

*– Dünyanın bir çox yerində türklər yaşayır. Bəs türk azlıqların bu təşkilatda yer alması necə mümkün ola bilər?*

– Mən Türk dünyasını 4 qrup üzrə təsnifatlandırardım: birincisi, 7 türk dövləti; ikincisi muxtariyyət olanlar – Rusiyanın tərkibindəki muxtar respublikalar, Qərbi Türküstan (Çinin tərkibində), Moldovada Qaqauziya; üçüncüsü, türk azlıqlardır ki, Qərbi Trakyada (Yunanıstan), Bolqarıstanda, İraqda, Suriyada, İranda, Gürcüstanda yaşayırlar; dördüncüsü, isə Avropaya gedib yerləşmiş türklərdir. Belə diaspor türklərinin sayı 10 milyondan çoxdur. Eləcə də, Asiya, Amerika, Afrika ölkələrində də yaşayan türklər var. Ona görə də TDT azlıqda olan türklər üçün də bir güvən yeri olacaq. Bu gün TDT-yə qatılmaq istəyən ölkələr çoxdur.

*– Rusiya da bu təşkilatda yer almaq istəyir...*

– Hazırda 10-a yaxın belə ölkə var. Bu təşkilat qeyri-türkdilli ölkələrin də marağındadır. TDT-yə yalnız rəsmi dövlət dili türkcə olan ölkələr tam üzv ola bilər. Məsələn, Şimali Kipr Türk Cümhuriyyəti orada təmsil olunacaq. Amma bu təşkilatda ortaq əməkdaşlıq deyə bir yenilik də oldu. Buna görə də Rusiya müşahidəçi olaraq qatıla bilər, Koreya da qatılmaq istəyir. Azərbaycan, Qazaxıstan, Türkmənistan neft və qazı, mühüm transmilli nəqliyyat imkanları, Türkiyə isə coğrafi mövqe və dünyadakı yüksək nüfuzu ilə bu təşkilatda əhəmiyyətli yer tutur. Türk Dövlətləri Təşkilatının gələcək 10 il içərisində çox güclü şəkildə inkişaf edəcəyinə inanıram.

**Mehparə Sultanova**
**Ankara**

## “Yeni aşıq səsləri”

Azərbaycan Aşıqlar Birliyi (AAB) “Yeni aşıq səsləri” layihəsinin icrasına başlayıb. Birlikdə yeniyetmə və gənc aşıqların seçilən, diqqətçəkən səsləri, ifa tərzləri mütəmadi olaraq dinlənilir, onlara istiqamət verilir və uyğun məqamda səhnəyə çıxarılaraq saz-söz ictimaiyyətinə təqdim olunur.

Bu layihə üzrə ilk addım olaraq fevralın 5-də Azərbaycan Televiziyasının “Mədəniyyət” kanalında yayımlanan “Saz-söz axşamı” verilişində (aparıcı AAB-nin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı – red.) gənc və yeniyetmə aşıqlardan Əhməd Təbrizoğlu, Nahid Yusifov, Rəqsanə Laçınlı, İbadət Mehdiyev, Murad Babaşov, Murad Dadaşəliyev və başqalarının ifaları tamaşaçılara təqdim edilib.

Martın 5-də efirə çıxacaq “Saz-söz axşamı”nda isə xanım ifaçıların yeni səsləri saz sevərlərin görüşünə gələcək.

“Yeni aşıq səsləri” layihəsi ilboyu davam edəcək.

## AzTV-nin “Şuşa İli”nə töhfəsi

Azərbaycan Televiziyası (AzTV) “Şuşa İli” ilə əlaqədar olaraq yeni layihəyə start verir. AzTV-nin Sosial media və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, “Şuşam mənim” adlı layihə silsilə verilişlər şəklində olacaq.




İl ərzində yayımlanacaq verilişdə Əməkdar incəsənət xadimi, sənətşünas, professor İlham Rəhimli iki şuşalı ilə birlikdə şəhəri qarış-qarış gəzəcək. Onlar Şuşada əvvəl mövcud olub, işğal zamanı ermənilər tərəfindən dağıdılmış abidələrin yerini, yaxud qalıqlarını tapır, köhnə şəkillərini və hazırkı vəziyyətini nümayiş etdirirlər.

Hər buraxılış mövzular üzrə (məhəllələr, bulaqlar, məscidlər, tarixi abidələr və s.) işlənəcək.

Layihənin məqsədi işğal dövründə şəhərdə həyata keçirilmiş erməni barbarlığını bir daha dünyaya nümayiş etdirməkdir.

# İlmələrin hikməti

Ən qədim nümunələri Qədim Misirdə ərsəyə gətirilən və çox-çox sonralar fransız əsilli Qobelen qardaşlarının soyadı ilə məşhurlaşan qobelen sənətinin yalnız XX əsrdə Azərbaycan sənət məkanına gəlməsi, heç şübhəsiz, onların uzun müddət yerli xovlu və xovsuz toxuculuq nümunələri ilə rəqabət aparmaq gücündə olmaması ilə bağlıdır. Azərbaycanın sovetləşməsindən sonra xüsusi təhsil ocaqlarında xalça sənəti ilə yanaşı, həm də Avropa mədəniyyəti nümunəsi kimi digər toxuculuq nümunələrinin, o cümlədən də qobelenin estetikasını əhatə edən bədii-texniki xüsusiyyətlər aşılanmaqda idi. Odur ki, təhsil sonrası bəziləri hər iki sahə ilə məşğul olurdular. Hər iki sahəyə maraq göstərənlərdən biri də Tamilla Abdullayeva olmuşdur.

Əlavə edək ki, zamanında Tiflisdəki İ.Toidze adına Rəssamlıq Məktəbində qobelenlə bağlı yiyələndiyi vərdişlərlə Bakıda görkəmli xalça ustası Lətif Kərimovdan aldığı sənət dərslərini qoşalaşdıran gənc rəssam, tezliklə özünü rəqabətli rəssamlıq məkanında çox inamlı hiss etməyə başlamışdı. Onun yaradıcılığında müşahidə olunan bədii axtarışlar da bunu təsdiqləyir. Ümumi bədii tutumuna görə bir-birindən fərqlənən xalça və qobelen nümunələrində çoxdan ənənəviləşən bədii yanaşmalara özünəməxsus yaradıcı münasibəti görmək mümkündür. Bu prosesdə ən diqqətçəkən məqam müəllifin yaratdığı nümunələrdə hər iki sənət növünün “estetik xəritəsi”nin çərçivəsini duyulası dərəcədə genişləndirmək istəyinin uğurlu təsdiqini tapa bilməsidir.



Ornamental xalçalarında ilmələrin klassik dəqiqliyini əldə etməyə səy göstərən Tamilla xanım



qobelenlərində sərbəst və icra improvizələrinə meyllidir. Bunun çox vaxt mövzunun məna-məzmun yükündən qaynaqlandığını vurğulamaqla, bədii-texniki prosesin son nəticədə, əsərin cəlbediciliyi ilə yanaşı, həm də düşündürücülüyünü şərtləndirdiyini qeyd etmək lazımdır.

Əgər onun 1980-2012-ci və sonrakı illərdə ərsəyə gətirdiyi xovlu xalçaların estetikasını dəyərləndirməli olsaq, onda daha qabarıq görünən bədii məziyyətin müəllifin klassik kompozisiyalara özünəməxsus görkəm vermək olduğunu deməliyik. Həm də milli bədii irs nümunələrinə yaddaqalan nəzirə kimi qəbul olunan bu xalçalarda ornamental ritmin kolorit yığcamlığı ilə ifadəsində nümayiş etdirilən yüksək sənətkarlıq da kifayət qədər görünəndir. Elə bunun sayəsində onun müxtəlif illərdə ərsəyə gətirdiyi xalça və xalça eskizlərinin yaddaqalan olduğunu vurğulamaq istərdik. Bu mənada “Ornamental kompozisiya” (2010), “Bağçada güllər” (1980), “Əfşan” (2010), “İslimibənd” (1980), “Saxsıda güllər” (2012) və digər xalçaların daşıdığı rəmzi-fəlsəfi naxış örtüyünün və incə koloritin nə qədər ruhsal olduğunu söyləmək mümkündür. Onların bədii tutumunu şərtləndirən nəbati və həndəsi ornamentlərinin estetikasına cəlbediciliklə yanaşı, həm də düşündürücülük qatıldığından ilmələrlə əyaniləşən ümumi görüntünün duyğulandırıcı olduğunu deməliyik...

Tamilla Abdullayevanın qobelənləri həm də bədii-texniki improvizələrin zənginliyi ilə fərqlənir. Onların düşündürücülüyü yəqin ki, bu dekorativ sənət nümunələrində həm də hikmət dolu xalça estetikasından yaradıcılıqla faydalanmanın uğurlu nəticələrini əks etdirir. Ümumi bədii tutumu və ifadə estetikası ilə həm də rəngkarlıq tablolarını xatırladan bu əsərlərdə ovqat yaratmaq gücü duyulandır. Bunun üçün müəllif formatdan və koloritdən çox uğurla istifadə edir. “Günəbaxanlar” (2012), “Lalələr” (2013), “Şəhidlərin xatirəsinə” (2020), “Çəməndə güllər” (2020), “Dirçəliş” (2022) və s. əsərlərində ümumi koloritin və rəmzə çevrilmiş ayrı-ayrı aynıların cəlbediciliyində həm də dərin məna-məzmun hifz olunduğundan onlar tamaşaçı ilə dialoq yaratmaq gücündədir.





Müəllifi düşündürən mövzuların silsilə qobelenlərlə ifadə edilməsi də onun yaradıcılığı üçün səciyyəvidir. Bu mənada müxtəlif illərdə yaradılmış “Novruz” (2020), “İlin fəsilləri” (2020), “Kəpənəklər” (2005-2006), “Qədim Azərbaycan rəmzləri” (2019-2020), “İlin dörd fəsli” (1998) və “Rənglərin harmoniyası” (2020) qobelenlərini qeyd etmək olar. Əsasən bir neçə əsərin bir araya gətirilməsi ilə düşüncələrini ifadə edən rəssam, onlar arasında axıcı rəng və forma-biçim keçidini əldə etməklə, son nəticədə kompozisiyanın bütövlüyünə nail ola bilmişdir. Başqa sözlə desək, Novruz bayramının əhval-ruhiyyəsi, kəpənək zərifliyinin cəlbediciliyi, fəsillərin rəng və ovqat daşıyıcılığı, ağac möhtəşəmliyinin qürurvericiliyi cəlbedici və gözoxşayan estetika ilə ifadə edildiyindən, onlardakı bədii bütövlük eyni zamanda xoş aura yaradıcısı kimi çıxış edir. Bu həm də onların yeri gələndə interyer bəzəyi kimi istifadəni şərtləndirir, desək, həqiqəti söyləmiş olarıq.

Qobelen kompozisiyalarında milli maddi-mənəvi sərvət nümunələrindən istifadə etməsi də onun yaradıcılıq xüsusiyyətlərdəndir. Rəssamın xalça naxışlarından və arxeoloji qazıntı nümunələrindən uğurlu istifadəsi zamanında müəllimi Lətif Kərimovun yaratdığı xalçaları xatırlatsa da, həmin bədii ayrıntıların gözoxşayan məcmusu eyni zamanda mənəvi dəyərlərin yeniliyə bələnmiş qürurverici görkəmdə tamaşaçıya təqdimatı kimi yadda qalır.

Tamilla xanımın tərtib etdiyi bir çox kompozisiyalara müəyyən meyvələri daxil etməsi, bilavasitə natürmort janrı yaratmaq istəyi kimi qəbul olunsa da, bütünlükdə onun daha çox ayrı-ayrı nemətlərə xas olan estetik dəyərləri qabartmaq istəyi duyulur.

“Nar” (2012), “Xurma” (2021), “Limon” (2021), “Payız nemətləri” (2022) və s. qobelenlərindəki meyvələr nə qədər dekorativ görünsələr də, onları səciyyələndirən plastikanın cəlbediciliyi elə ilk baxışdan hiss olunur.

Əgər Tamilla Abdullayevanın xalçalı-qobelenli yaradıcılıq irsinə yekunlaşdırıcı dəyər verməli olsaq, onda ilk növbədə bu çoxsaylı dekorativ-tətbiqi sənət nümunələrində milli bədii irsə yaradıcı yanaşma nümayişinə şahidlik etdiyimizi söyləyə bilərik. Bu münasibətin kökündə ənənə ilə müasirliyin qovuşması durduğundan ərsəyə gətirilən toxuculuq nümunələri istənilən tamaşaçını ovsunlamaq gücündədir...

**Ziyadxan Əliyev**
**Əməkdar incəsənət xadimi, professor**

## MÜHACİRƏT ƏDƏBİYYATIMIZ

## Alazan Baycanın “Əsərləri” çapdan çıxıb

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təsis etdiyi “Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası” seriyasının V cildi – Alazan Baycanın “Əsərləri” “Elm və təhsil” nəşriyyatında çapdan çıxıb.

Ədəbiyyat İnstitutundan verilən məlumata görə, kitaba Azərbaycan mühacirət ədəbiyyatının nisbətən az tanınmış nümayəndəsi Alazan Baycanın (1913-1989) şeirləri, poemaları, alman poeziyasından tərcümələri və məktublarından örnəklər daxil edilib. Mühacir şairin ədəbi irsi kitab halında Vətənində ilk dəfə nəşr olunur.

Seriyanın baş redaktoru AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru akademik İsa Həbibbəyli dir. Cildin tərtibçisi, ön söz və qeydlərin müəllifi filologiya elmləri doktoru Nikpur Cabbarlı, məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru Abid Tahirlidir.

İnstitutda “Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası” seriyasının növbəti cildləri üzərində işlər davam etdirilir.

## TARİX MUZEYİNİN FONDUNDA

## XVI-XIX əsrlərə aid 300-dən çox silah nümunələri

Milli Azərbaycan Tarixi Muzeyinin XVI-XIX əsrlərə aid silah kolleksiyasında 300-dən artıq müxtəlif çeşidli, funksional təyinatlı müdafiə, soyuq və odlu silah nümunələri qorunur.

Muzeydən bildirilib ki, bu nümunələr arasında zəngin ənənələrə malik yerli silahsazların emalatxanalarında istehsal olunan silahlar böyük əksəriyyət təşkil edir. Usta hazırladığı silahı və onun hissələrini növündən asılı olaraq, adətən kəsmə, basma, cızma üsulları ilə, basma qızıldan və cilalamadan istifadə etməklə bəzəyirdi. Dəstək və qəbzələrə, qınlara, tüfənglərin qundaqlarına nəbati ornament və həndəsi naxışlar qarasavadla, qızıl işləmələrlə nəqş olunurdu. Silahın üstündə onun məzmununa uyğun yazılar, eləcə də sahibinin, yaxud ustanın adı, bəzən də istehsal tarixi nəfis xətlə, dekorativ motivlərlə həkk edilirdi.

Muzeyin fondunda saxlanılan çoxsaylı nadir silah növləri arasında bir üzündə “Əs-Sultan”, digər üzündə “Şah İsmayıl” sözləri yazılmış təbərzin də mühafizə olunur. Birtərəfli olan bu təbərzinin kəsər hissəsi aypara formasındadır. Kəsər hissənin mərkəzində cızma üsulu ilə çəkilmiş nəbati ornamentlər fonunda yuxarıdakı sözlər yazılıb. Uzunluğu 71 santimetr olan bu təbərzinin dəstəyi içi boş dəmirdir. Aşağı və yuxarı tərəfləri spiralvarı naxışlarla bəzədilib.

## Xatirə təqvimi

**12–15 fevral**

### Azərbaycan

**12 fevral 1911** – Məşhur tarzən, Xalq artisti Bəhram Məşədi Süleyman bəy oğlu Mənsurov (1911 – 14.5.1985) Bakıda doğulub. 1932-ci ildən Dövlət Opera və Balet Teatrının solisti və konsertmeysteri olub.

**12 fevral 1912** – Memar, AMEA-nın müxbir üzvü Ənvər Əli oğlu Qasımzadə (1912 – 12.3.1969) anadan olub.

**12 fevral 1921** – Məşhur aktyor Əbülhəsən Anaplı (Məmmədov; 1894, Quba – 1921) vəfat edib. Hacıbəyli qardaşlarının teatr truppasının aparıcı artistlərindən olub.

**12 fevral 1923** – Şair, dramaturq İslam Əhməd oğlu Səfərli (1923 – 6.11.1974) Naxçıvan Muxtar Respublikası Babək rayonunun Şəkərabad kəndində doğulub. “Göz həkimi”, “Ana ürəyi”, “Yolayrıcı” və s. pyeslərin müəllifidir. Şeirlərinə mahnılar bəstələnib.

**12 fevral 1925** – Filosof, Əməkdar elm xadimi, professor Adil Yusif oğlu Nəcəfov (1925-1989) anadan olub.

**12 fevral 1933** – Heykəltəraş, Əməkdar rəssam Elmira Mehralı qızı Hüseynova (1933 – 23.1.1995) anadan olub. Həsən bəy Zərdabi (Bakı), Cəfər Cabbarlı (Sumqayıt) və başqa görkəmli şəxslərin abidələrinin müəllifidir.

**12 fevral 1933** – Xanəndə, Əməkdar artist Mais Qurban oğlu Salmanov (1933 – 25.7.2008) Şəmkir rayonunun Morul kəndində doğulub. Opera və Balet Teatrının solisti olub.

**13 fevral 1898** – Xalq artisti Viktor Petroviç Şarlaxov (1898-1989) anadan olub. Dövlət Rus Dram Teatrının aktyoru (1938-1953) olub, Dövlət mükafatına layiq görülüb.

**13 fevral 1910** – Ədəbiyyatşünas alim, professor Nazakət Həsən qızı Ağazadə (1910-1979) anadan olub. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədr müavini Həsən bəy Ağayevin qızıdır.

**13 fevral 1927** – Xalq artisti Roza Heydər qızı Cəfərxanova (1927 – 18.5.2010) Naxçıvan MR Ordubad rayonunda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisası olub.

**13 fevral 1946** – Xalq artisti Əliabbas Gülabbas oğlu Qədirov (1946 – 8.3.2006) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, teatra rəhbərlik (2002-2006) edib. Kinoda (“Qızıl uçurum”, “Nəğmə dərsi”, “Küçələrə su səpmişəm” və s.) yaddaqalan obrazlar yaradıb, Dövlət mükafatına (“Sevinc buxtası” – Nazim, 1978) layiq görülüb.

**13 fevral 1948** – Xalq artisti, xanəndə Sabir Məhərrəm oğlu Əliyev (1948 – 22.12.2020) Cəlilabad rayonunda anadan olub. 1968-ci ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında solist-vokalçı kimi çalışıb.

**13 fevral 1952** – Tanınmış aktyor Şahmar Qərib oğlu Qəribli (1952-2018) anadan olub. H.Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrında çalışıb, filmlərdə çəkilib, tamaşalara quruluş verib.

**13 fevral 2009** – Xalq şairi, dramaturq, ədəbiyyatşünas, akademik, Dövlət mükafatları laureatı Bəxtiyar Mahmud oğlu Vahabzadə (16.8.1925 – 2009) vəfat edib. 20-dək poemanın, 10 dram əsərinin (“Vicdan”, “Yollara iz düşür”, “Özümüzü kəsən qılınc” və s.) müəllifidir.

**14 fevral 1918** – Memarlıq doktoru, Dövlət mükafatı laureatı Davud Ağa oğlu Axundov (1918 – 19.11.2003) anadan olub. Qafqaz Albaniyası dövründə Azərbaycan memarlığının tarixinə dair əsərlərin müəllifidir.

**14 fevral 1925** – Xalq artisti, dirijor, Dövlət mükafatı laureatı Nazim Əsədulla oğlu Rzayev (1925 – 2.5.2006) anadan olub. Azərbaycan Dövlət Kamera Orkestrinin bədii rəhbəri olub, Türkiyədə çalışıb.

**14 fevral 1940** – Azərbaycan Televiziyasının ilk diktorlarından Tamara Cəfər qızı Gözəlova-Ağamirova (1940 – 8.5.2020) Bakıda anadan olub. “O olmasın, bu olsun” filmində (1956) Gülnaz roluna çəkilib. Milli Kitabxanada çalışıb.

**14 fevral 1980** – Görkəmli aktyor, rejissor, Xalq artisti Rza Təhmasib (20.4.1894 – 1980) vəfat edib. “Bakıda küləklər əsir”, “Qanun naminə” və s. filmlərdə çəkilib, “Onu bağışlamaq olarmı?” filminin rejissorudur. Azərbaycan Teatr Cəmiyyətinin sədri olub.

**15 fevral 1909** – Əməkdar incəsənət xadimi, aktrisa Xədicə Bahəddin qızı Qazıyeva (1909 – 8.7.1991) Kazan şəhərində doğulub. 1926-cı ildə Azərbaycana gəlib, Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb.

**15 fevral 1914** – Xalq artisti, aktyor Muxtar Həsən oğlu Avşarov (1914 – 6.12.2004) anadan olub. Gəncə Dram, Akademik Milli Dram, Bakı Bələdiyyə teatrlarında çalışıb. “Dəli Kür”, “Qaçaq Nəbi”, “Kişi sözü” və s. filmlərdə çəkilib.

**15 fevral 1922** – Əməkdar mədəniyyət işçisi Mirəziz Ziyad oğlu Rəfiyev (1922-2007) anadan olub. Yardımlı Tarix-Diyarşünaslıq Muzeyinin direktoru işləyib.

**15 fevral 1923** – Musiqişünas, sənətşünaslıq namizədi Xanlar Həmid oğlu Məlikov (1923-1999) anadan olub. Muğamların lad intonasiya xüsusiyyətləri haqqında tədqiqatların müəllifidir.

**15 fevral 1933** – Əməkdar artist Bürcəli Veysəl oğlu Əsgərov (1933 – 1.11.2005) Borçalı bölgəsinin Qasımlı kəndində doğulub. Milli Dram Teatrında çalışıb. Filmlərdə (“Onu bağışlamaq olarmı?”, “Qırmızı qar”), televiziya tamaşalarında çəkilib.

**15 fevral 1934** – Əməkdar incəsənət xadimi, bəstəkar Adil Musa oğlu Bəbirov (1934 – 26.9.2021) Bakıda anadan olub. Müxtəlif janrlarda əsərlər, filmlərə, tamaşalara musiqi yazıb, mahnıların müəllifidir. Ömrünün son illərini Kanadada yaşayıb, orada vəfat edib.

**15 fevral 2005** – Xalq artisti Xuraman Hacıyeva (7.3.1945 – 2005) vəfat edib. “Arşın mal alan” (1965), “Lətifə” və s. filmlərdə çəkilib. Gənc Tamaşaçılar, Naxçıvan Musiqili Dram teatrlarında işləyib.

### Dünya

**12 fevral 1865** – Polyak şairi, yazıçı və dramaturq Kazimej Pşerva-Tetmayer (1865-1940) anadan olub.

**12 fevral 1881** – Dünya şöhrətli balerina, SSRİ Xalq artisti Anna Pavlovna Pavlova (1881-1931) anadan olub.

**13 fevral 1873** – Rus opera müğənnisi Fyodor İvanoviç Şalyapin (1873-1938) anadan olub. 1921-ci ildə mühacirətə gedib, Parisdə vəfat edib.

**13 fevral 1883** – Rus aktyoru və rejissoru, teatr xadimi Yevgeni Baqrationoviç Vaxtanqov (1883-1922) Vladiqafqazda doğulub.

**13 fevral 1903** – Detektiv romanlar müəllifi, Belçika əsilli fransız yazıçısı Jorj Simenon (Georges Joseph Christian Simenon; 1903-1989) anadan olub.

**14 fevral 1483** – Özbək şairi və yazıçısı, dövlət xadimi, Böyük Moğollar dövlətinin qurucusu Zahirəddin Məhəmməd Babur (1483-1530) anadan olub. Əmir Teymurun nəslindəndir, “Baburnamə”nin müəllifidir.

**14 fevral 1914** – İtalyan kinorejissoru, ssenarist Pyetro Cermi (Pietro Germi; 1914-1974) anadan olub. “İtalyansayağı boşanma” filminə görə “Oskar” mükafatı (1963) alıb.

**14 fevral 1944** – İngilis rejissoru və ssenaristi Alan Parker (Alan William Parker; 1944 –31.7.2020) anadan olub. “Gecəyarısı ekspresi”, “Mələk ürəyi” filmlərini çəkib, Kann kinofestivalının qalibi olub.

**15 fevral 1564** – İtalyan fiziki, astronom, riyaziyyatçı və filosof Qalileo Qaliley (Galileo Galilei; 1564 – 8.1.1642) anadan olub.

**15 fevral 1906** – Tatar şairi, Sovet İttifaqı Qəhrəmanı Musa Cəlil (1906 - 25.8.1944) anadan olub. Böyük Vətən müharibəsində əsir götürülüb, Berlində Moabit həbsxanasında öldürülüb.

**15 fevral 1914** – Qazaxıstan milli kinosunun ilk rejissorlarından biri, SSRİ Xalq artisti Şaken Aymanov (1914-1970) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

№12 (1885)
11 fevral 2022
www.medeniyyet.az

# "Türk Dünyasının Mədəniyyət Paytaxtı"
## Bursa Sarayevoda təqdim olunub

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un layihəsi üzrə 2022-ci ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilən Bursa şəhərinin Avropada daha bir təqdimatı keçirilib.

Təqdimat Bosniya və Herseqovinanın paytaxtında – 38-ci Sarayevo Qış Festivalının açılış mərasimi çərçivəsində Bursaya həsr edilən fotosərgi ilə gerçəkləşib.

Sarayevodakı Yunus Əmrə İnstitutunda təşkil olunan tədbirdə Türkiyənin Sarayevodakı səfiri Sadık Babür Girgin, Bursa Bələdiyyəsi Mədəniyyət Müdirliyinin rəhbəri, "Bursa – 2022: Türk Dünyasının Mədəniyyət Paytaxtı"nın koordinatoru Fətullah Bingül, TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Sarayevo Qış Festivalının direktoru İbrahim Spahiç və Stari Qrad Bələdiyyəsinin sədri İbrahim Hacıbayriç iştirak ediblər.

Təqdimatda çıxış edən Fətullah Bingül Bursa ilə Sarayevonun 1972-ci ildən bəri qardaş bələdiyyələr olduğunu xatırladaraq, "Güclü əlaqələrimiz və dostluğumuzun sonsuza qədər davam edəcəyinə ümid edirəm" deyib. O, Bursada Balkanlara bənzəyən çox sayda mədəni izlərin olduğunu da diqqətə çatdırıb: "Bursa memarlıq və mədəniyyətin ən yaxşı nümunələri, təbii gözəllikləri, yay-qış turizmi imkanlarına malik tarixi bir şəhərdir".



Səfir Sadık Babür Girgin də Sarayevo və Bursanın tarixi bənzərliyindən danışıb: "Sarayevo və Bursaya baxdığınız zaman onların həqiqətən də, oxşar olduğunu görəcəksiniz. Hər iki şəhər uzun tarix boyu paytaxt olub. Onların böyük mədəni irsi var. İki şəhəri bir-birinə bənzədən ortaq xüsusiyyətlər həmçinin insanları və təbiətidir...".

Düsen Kaseinov isə öz çıxışında TÜRKSOY-un əsas missiyasından bəhs edib: "Məqsədimiz qardaş xalqlarımızla dostluq əlaqələrini qoruyub saxlamaqla ortaq mədəniyyətimizi, dilimizi, tariximizi, adət-ənənələrimizi kəşf etmək, inkişaf etdirmək, qoruyub




saxlamaq, dünyada tanıtmaq və gələcək nəsillərə ötürməkdir...".

Beynəlxalq Sarayevo Qış Festivalının direktoru İbrahim Spahiç Sarayevo və Bursa arasında əlaqələrin daha da gücləncəyinə inandığını bildirib.

Qeyd edək ki, 38-ci Sarayevo Qış Festivalının rəsmi açılış mərasimində TÜRKSOY-un Baş katibi Düsen Kaseinova humanizm, mədəniyyət, insan hüquq və azadlıqlarına verdiyi töhfələrə görə "Azadlıq Mükafatı" ("Nagrada Sloboda") təqdim olunub.

Səfər gedişində Düsen Kaseinov Bosniya və Herseqovina Dövlət Başqanlığı Şurasının üzvü (ölkəni bosniyalı müsəlmanlar, xorvat və serbləri təmsil edən üçlü Başqanlıq Şurası idarə edir – red.) Şefik Caferoviç tərəfindən də qəbul edilib.

Məlumat üçün bildirək ki, "Sarayevo Qış Festivalı" 1984-cü ildə bu şəhərin ilk dəfə ev sahibliyi etdiyi Qış Olimpiya Oyunlarından sonra ənənəvi olaraq keçirilir. Builki festivalın açılışına bir çox yerli və qonaq sənətçilər də qatılıb. Fevralın 7-də başlanan festival martın 21-dək müxtəlif tədbirlərlə davam edəcək.

Xatırladaq ki, 2022-ci ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilən Bursa şəhərinin bundan öncə Serbiyada – Belqrad şəhərində tanıtım-təqdimat mərasimi keçirilmişdi.

**Mehparə Sultanova**
**Ankara**

# Azərbaycanın turizm imkanları İstanbul sərgisində

Fevralın 9-da İstanbulda dünyanın ən böyük turizm sərgilərindən olan "EMİTT – 2022" – Şərqi Aralıq dənizi Beynəlxalq Səyahət və Turizm Sərgisi işə başlayıb.

Bu il 25-ci dəfə keçirilən beynəlxalq sərgidə Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosu tərəfindən ölkəmizin milli stendi qurulub. Stenddə beş yerli turizm şirkəti, bir mehmanxana qrupu və "Azərbaycan Hava Yolları" QSC-nin guşələri də yer alıb.

İstanbulun TÜYAP Sərgi və Konqres Mərkəzində fevralın 12-dək davam edəcək sərgi çərçivəsində Türkiyənin aparıcı turizm şirkətləri və xarici ölkələrdən olan nümayəndələrlə, marketinq və PR agentləri, eyni zamanda dövlət qurumlarının təmsilçiləri ilə görüşlər də keçirilir. Görüşlərdə qarşılıqlı əməkdaşlıq, Azərbaycanın turizm potensialının tanıdılması məsələləri müzakirə edilir, yerli turizm məhsulları, ekoturizm, kampinq, şərab turizmi və qastronomiya, qış turizm imkanları təqdim olunur.




Sərgidə Azərbaycanın işğaldan azad olunun ərazilərinin turizm potensialı, Zəngəzur dəhlizi və bu dəhlizin imkanları da təbliğ edilir.

Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy "EMİTT – 2022" sərgisinin açılış günü Azərbaycan stendini də ziyarət edib. Nazir Dövlət Turizm Agentliyinin və Azərbaycan Turizm Bürosunun nümayəndələri ilə görüşüb.

Mehmet Nuri Ersoy Azərbaycan və Türkiyə arasında turizm əlaqələrinin hazırkı inkişafını yüksək qiymətləndirib və bu əməkdaşlığı daha da genişləndirmək istədiklərini deyib. "Mən qardaş ölkəni ziyarət etdiyim zaman Azərbaycanın çox böyük turizm potensialının olduğunu gördüm. Türkiyənin turizm potensialı yüksək olan bölgələrində Azərbaycanın yetərincə tanıdılması ölkəyə türk turistlərin cəlb olunmasını artıracaq. Burada mövcud qarşılıqlı turizm əlaqələrimizin daha da artırılması əsas məqamlardan biridir", – deyə o bildirib.

# "Oskar" mükafatına namizədlər məlum olub




Amerika Kino Akademiyası 2022-ci il "Oskar" mükafatı uğrunda mübarizə aparacaq namizədlərin adını açıqlayıb.

Bu il "Ən yaxşı film" nominasiyasında 10 film rəqabət aparacaq. Onların arasında rejissor Ceyn Kempionun (Yeni Zelandiya) ötən ay "Qızıl qlobus" (Hollivud Xarici Jurnalistlər Birliyinin mükafatı) qazanmış "Köpəyin hökmranlığı" ("The Power of the Dog") filmi də var. Stiven Spilberqin "Qərb tərəfin əhvalatı" ("West Side Story") və Kennet Brananın ("Belfast") filmləri də "Oskar"a iddiaçılar arasındadır.

Kennet Brana, Ryusuke Hamaquti, Pol Tomas Anderson, Ceyn Kempion və Stiven Spilberq "Ən yaxşı rejissor" adı uğrunda mübarizə aparacaqlar.

"Ən yaxşı aktrisa" kateqoriyasında qalib olmaq üçün Nikol Kidman ("Rikardo olmaq"), Oliviya Kolman ("Yad qız"), Penelopa Kruz ("Paralel analar"), Cessika Çesteyn ("Temmi Feyin gözləri"), Kristen Stüart ("Spenser") mübarizəyə qatılıb.

"Ən yaxşı aktyor" nominasiyasında isə "Oskar" namizədləri bunlardır: Xavyer Bardem ("Rikardo olmaq"), Benedikt Kamberbetç ("Köpəyin hökmranlığı"), Endryu Qarfild ("Tik-tak, bum!"), Uill Smit ("Kral Riçard") və Denzel Vaşinqton ("Makbet").

Yaponiyalı kinematoqrafçıların "Qızıl qlobus"a layiq görülmüş "Maşınımın sükanına keç" ("Drive my car", rejissor Ryusuke Hamaquçi) bədii filmi "Xarici dildə ən yaxşı film" (ingilis dilində olmayan filmlər) kateqoriyasında da "Oskar"a əsas iddiaçılardandır.

Qeyd edək ki, ABŞ kinoakademiyasının əsas mükafatı olan "Oskar"ın 94-cü mükafatlandırma mərasimi martın 27-də ənənəvi olaraq Los-Ancelesdəki "Dolby Teatrı"nda keçiriləcək.

### PİSLƏRİN PİSİ

## "Qızıl moruq" uğrunda da "yarışma" var

Amerikada ənənəvi olaraq "Oskar" mərasimindən bir gün əvvəl verilən və ən uğursuz film, rejissor, aktyor və s. üçün nəzərdə tutulan "Qızıl moruq" mükafatının da namizədlərinin siyahısı açıqlanıb.

Bu dəfə "pislərin pisi" (təbii ki, kinomanların deyil, münsiflərin rəyinə görə) adına "iddiaçılar" arasında məşhur aktyor Bryus Villis, Skott İstvud, Ben Afflek, aktrisa Emi Adams, rejissorlar Kristofer Eşli (Diana: müzikl), Stiven Çboski ("Əziz Evan Hansen") və başqaları var.




# "Mövsümün sonu" Kölndə nümayiş olunub

Almaniyanın Köln şəhərində rejissor Elmar İmanovun "Mövsümün sonu" filminin nümayişi olub.

Fevralın 8-də gerçəkləşən təqdimata Mədəniyyət Nazirliyinin və Azərbaycan Kinematoqrafçılar İttifaqının dəstəyi ilə filmin aktyor heyəti də qatılıb.

Bu barədə Əməkdar artist Rasim Cəfər məlumat verib. Bildirib ki, filmin nümayişindən sonra tamaşaçılar film haqqında fikirlərini bölüşüblər: "Bu, Azərbaycan kinosunu təmsil edən bir aktyor kimi məni həm sevindirdi, həm qürurlandırdı...".

Qeyd edək ki, "Mövsümün sonu" filmi Almaniyanın müxtəlif şəhərlərinin kinoteatrlarında təqdim olunacaq. Növbəti nümayiş Berlində baş tutacaq.

**Lalə**

# "Berlinale" – 72-ci dəfə

Fevralın 10-da Almaniyanın paytaxtında Avropanın ən nüfuzlu üç kino forumundan biri olan "Berlinale" Beynəlxalq Film Festivalı açılıb.




72-ci "Berlinale"nin əsas proqramında 27 tammetrajlı film (16 bədii, 11 sənədli), "Forum Special" proqramında isə 14 ekran əsəri var. Bundan əlavə, festivalın "Encounters", "Generation 14+", "Berlinale Series Market" kimi proqram və bölmələri də var.

Pandemiya ilə əlaqədar "Berlinale" formatını bir qədər dəyişib. Festivalın əsas müsabiqə filmlərinin ("Qızıl ayı" və "Gümüş ayı" uğrunda yarışanlar) nümayişi fevralın 16-dək keçiriləcək. Mükafatların təqdimetmə mərasimi də həmin gün olacaq. Bundan sonra isə fevralın 20-dək bütün "Berlinale" kinoteatrlarında festivalın filmlərinin təkrar nümayişi təşkil olunacaq. Pandemiya şərtlərinə görə "Berlinale" kinoteatrlarının tutumu kəskin şəkildə – 50 faizə qədər azaldılıb.

### Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 174 il əvvəl...

**15 fevral 1848-ci ildə** Londonda Karl Marks və Fridrix Engelsin birgə yazdığı "Kommunist partiyasının manifesti" əsəri çapdan çıxıb. İlk nəşri alman dilində işıq üzü görən 23 səhifəlik broşür ilə uzun illər bir sıra ölkələrdə hakim olmuş kommunist ideologiyasının təməli qoyulub.

### 102 il əvvəl...

**12 fevral 1920-ci ildə** Azərbaycan Kommunist (bolşeviklər) Partiyası yaranıb. Partiyanın təsis qurultayında (11-12 fevral) qəbul olunan proqramda Azərbaycan Xalq Cümhuriyyəti hökumətini yıxmaq üçün silahlı üsyan xətti irəli sürülüb. Bolşevik Rusiyasının siyasətini həyata keçirən AK(b)P-nin rəhbəri isə erməni millətçisi Anastas Mikoyan idi.

### 100 il əvvəl...

**15 fevral 1922-ci ildə** Haaqada (Niderland) Beynəlxalq Qanunçuluq Məhkəməsinin ilk sessiyası açılıb. II Dünya müharibəsindən sonra Haaqada Beynəlxalq Tribunal fəaliyyətə başladı.

### 77 il əvvəl...



**13 fevral 1945-ci ildə** II Dünya müharibəsində ən böyük bombardmanlardan biri baş verib. ABŞ-Britaniya hərbi aviasiyası Drezden şəhərinə ümumilikdə 3750 ton bomba atıb. Şəhərdə 100 mindən çox adam ölüb, içərisində yüzlərlə tarixi abidə olan 30 mindən çox bina dağıdılıb. Müharibənin taleyinin həll olunduğu bir vaxtda hərbi nöqteyi-nəzərdən strateji əhəmiyyət daşımayan şəhərdə belə bir əməliyyata ehtiyac yox idi. Lakin Britaniya bununla 1940-cı ildə almanların Londonu bombalamasının əvəzini çıxırdı.

### 66 il əvvəl...

**14 fevral 1956-cı ildə** Moskvada Sov.İKP-nin XX qurultayı işə başlayıb. Sovet dövlətinin ali toplantısı 11 gün davam etdi və Stalin mifinin dağılması ilə tarixə düşdü. Qurultayda məruzə ilə çıxış edən SSRİ rəhbəri Nikita Xruşşov İosif Stalinin "şəxsiyyətə pərəstiş siyasəti"ni ifşa edib. Qurultay SSRİ-də nisbi demokratik "istiləşmə" dövrünün başlanmasında tarixi rol oynadı.




**14 fevral 1956-cı il** Azərbaycan Televiziyasının yarandığı gündür. Bakı Televiziya Studiyası yayıma başlayıb. Telestudiya əvvəlcə həftədə 3 dəfə, 1957-ci ildən 5 dəfə 2 saatlıq proqramla efirə çıxırdı. 1962-ci ildə gündəlik efirə çıxan proqramların həcmi 7 saatadək artırıldı. 70-ci illərdə gündəlik verilişlərin yayım həcmi 10, 80-ci illərdə 18 saata çatdırıldı. 2005-ci ildən 24 saatlıq fasiləsiz yayıma keçib.

### 30 il əvvəl...

**13 fevral 1992-ci ildə** Dağlıq Qarabağ münaqişəsi ilə bağlı regiona ATƏT-in (o vaxt ATƏM adlanırdı) ilk missiyasının səfəri başlayıb. Təşkilata sədrlik edən Çexoslovakiya (1993-cü ildə Çexiya və Slovakiyaya bölündü) Prezidenti Administrasiyasının rəhbəri Karel fon Şvartsenberqin başçılıq etdiyi heyət bir həftə ərzində Bakı, Yerevan və Xankəndidə olmuşdu. Həmin ilin 24 martıda ATƏT-in Minsk qrupu yarandı.

**Hazırladı: V.Orxan**

# "Kökünü kəsmək mümkün deyil, amma..."

Koronavirusun kökünü kəsmək mümkünsüzdür, amma ümid var ki, yaxın vaxtlarda COVİD-19 məhdudiyyətlərindən imtina etmək mümkün olacaq.

Bunu ABŞ-ın baş infeksionisti Entoni Fauçi "Financial Times" qəzetinə müsahibəsində deyib.

"Biz bu virusun kökünü heç cür kəsə bilmərik... Amma mən ümid edirəm ki, vaxt gələcək, yetərincə insanlar peyvənd olunaraq əvvəlki infeksiyalardan müdafiə əldə edəcək və COVİD məhdudiyyətləri keçmişdə qalacaq", - deyə o, bildirib. Onun fikrincə, hər amerikalıya müntəzəm vaksinasiya lazım gəlməyəcək: "Əgər siz 30 yaşında sağlam insansınızsa, sizə təkrar vaksinasiya dörd və ya beş ildən bir lazım ola bilər...".

Bu arada dünya üzrə COVİD-19 ilə bağlı rəsmi məlumatların statistikasını aparan "Worldometer" saytı yeni rəqəmləri açıqlayıb. Sayt xəbər verir ki, fevralın 10-da dünyada koronavirusa yoluxanların ümumi sayı 405 milyona çatıb. Həmçinin infeksiya səbəbindən ölənlərin sayı 5,8 milyona yaxınlaşıb. Gündəlik yoluxma sayı 2,7 – 3 milyon arasındadır.

ABŞ pandemiyanın başlanğıcından bəri həm yoluxma, həm də virusla bağlı ölənlərin sayına görə birinci yerdədir. Birləşmiş Ştatlarda indiyədək koronavirusa 80 milyona yaxın insan yoluxub, onlardan 933 mindən çoxu həyatını itirib.

İkinci yerdə Hindistan (44 milyondan çox rəsmi təsdiq edilmiş yolxuma, 506 mindən çox ölü), üçüncü yerdə Braziliyadır (27 milyon yoluxma, 635 minə yaxın virusun qurbanı).

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 436
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641